RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 121 (8437) CÜMƏ AXŞAMI, 25 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Prezidentin gündəliyində koronavirusla mübarizə birinci plandadır

## İlham Əliyev üç korpusdan ibarət, 100 palata və 200 çarpayılıq xəstəxana kompleksinin açılışını etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım yeni tibb müəssisəsində yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, digər modul tipli infeksion xəstəliklər korpuslarında olduğu kimi, burada da orta simptomları olan infeksion koronavirus xəstələrin qəbulu və müalicəsi üçün şərait yaradılıb. Bildirilib ki, eyni zamanda, yeni tibb müəssisəsinin daha ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz olunması istiqamətində işlər görülür. Üç korpusdan ibarət olan, ümumilikdə 100 palata və 200 çarpayılıq bu xəstəxana kompleksi mərkəzləşdirilmiş oksigen generator sistemi, həmçinin xüsusi havalandırma sistemi ilə təchiz olunub. Bu sistem havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürəcək.

Modul tipli infeksion xəstəliklər korpusu ilə tanışlıqdan sonra dövlət başçısı və birinci xanım bir qrup tibb işçisi ilə görüşdülər.

Prezident İlham Əliyev görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Bu gün Gəncə şəhərində modul tipli xəstəxana açılır. Bu əlamətdar hadisə münasibətilə sizi təbrik edirəm.

Qısa müddət ərzində 200 çarpayılıq, müasir texnologiyalar əsasında quraşdırılan xəstəxana artıq istifadəyə verilir. Nəzərə alsaq ki, koronavirusla mübarizə davam edir, bu xəstəxananın çox böyük əhəmiyyəti vardır.

Ölkəmizdə sayca 5-ci modul tipli xəstəxana açılır. Onlardan ikisi Bakıda, biri Sumqayıt şəhərində, biri isə Abşeron rayonunda artıq fəaliyyətə başlayıbdır. Yaxın həftələrdə digər şəhərlərdə də bu tipli xəstəxanalar istifadəyə veriləcək. Beləliklə, bu xəstəxanaların sayı 10-a çatacaq. Bu, bizə imkan verəcək ki, əlavə 2 min çarpayı əldə edək. Nəzərə alsaq ki, koronavirus xəstələrinin sayı artır, bu, COVID-19-a qarşı mübarizədə öz rolunu oynamalıdır.

Bu xəstəxanaların tikintisi ilə əlaqədar qərar aprel ayında qəbul edilmişdir. O vaxt xəstələrin sayı kifayət qədər az idi. Eyni zamanda, yəqin ki, xatırlayırsınız, aprel ayında xəstələnənlərin və sağalanların arasında fərq müsbət idi. Daha çox insan sağalırdı, nəinki xəstələnirdi. Amma buna baxmayaraq, hesab etdik ki, əlavə çarpayıların əldə edilməsi də faydalı ola bilər. Həyat göstərdi ki, bu nə qədər düzgün qərar idi. Çünki bu gün xəstələrin sayı artır və beləliklə, bizə yeni çarpayılar lazımdır.

Bütövlükdə deyə bilərəm ki, əgər son illər ərzində mənim göstərişimlə ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, bu gün biz koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik. Son illərdə ölkəmizin səhiyyə sisteminin möhkəmləndirilməsi işində ən vacib məsələlərdən biri yeni xəstəxanaların tikilməsi, köhnə xəstəxanaların isə əsaslı təmiri və bərpası olmuşdur. Beləliklə, bizim şəhərlərin mütləq əksəriyyətində xəstəxanalar tikilib və bir neçə şəhərdə tikinti davam edir.

Ardı 3-cü səh.

## Ulu Öndərə dərin ehtiram

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə şəhərinə səfərə gəliblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Gəncəyə 16-cı səfəridir. Belə səfərlər zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı dövlət başçısının verdiyi göstərişlər, imzaladığı sərəncamlar şəhərin hərtərəfli inkişafına zəmin yaradır. Belə ki, 2003-cü ilə nisbətdə 2019-cu ildə Gəncədə məhsul buraxılışı 4,3 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 2,8 dəfə, əsas kapitala yönəldilmiş vəsait 60 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 63,1 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübü ərzində Gəncədə 60 587, bu il isə ödənişli əsaslarla 2075, pandemiya ilə əlaqədar üç min müvəqqəti iş yeri açılıb.



## Azərbaycanın yeni siyasi konfiqurasiyası Prezident İlham Əliyevin iradəsinin nəticəsidir

ASRP sədrinin birinci müavini Əsli KAZIMOVA:

### “Yeni siyasi dialoq təşəbbüsü iqtidarın müxalif partiyaların fikir və təkliflərini öyrənmək niyyətini təsdiq edir”

Azərbaycanda siyasi həyat son dövrlər mühüm yeniliklərlə əlamətdardır. Bunlardan biri iqtidar-müxalifət dialoqunun yeni müstəviyə keçməsidir. Müxalifət və iqtidaryönlü cərəyanların təmsilçiləri bu amili respublikamızda yeni siyasi münasibətlərin formalaşması baxımından mühüm hadisə kimi dəyərləndirirlər. Azərbaycan Sosial Rifah Partiyası (ASRP) sədrinin birinci müavini Əsli Kazımova ilə söhbətimiz də bu barədə oldu.

### İlham Əliyevin tətbiq etdiyi yeni idarəçilik modelinin alternativi yoxdur

Əsli Kazımovanın sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş azərbaycançılıq ideologiyasının güclü təməli nəzərə alınmaqla ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə modern dövlət idarəçiliyi modelinin tətbiq olunması Azərbaycanı uğurlu inkişafa aparan yoldur: “Respublikamızın siyasi sisteminin yeni dizaynı Prezident İlham Əliyev tərəfindən iqtisadi və sosial tərəqqiyə, demokratiyaya və insan kapitalının hərtərəfli inkişafına istiqamətləndirilib. Azərbaycanda yeni tipli dövlət hakimiyyətinin formalaşması, həm ölkəmizin tarixi təcrübəsinə, həm də demokratik dövlətçiliyin təşəkkülü və inkişafı sahəsində dünya təcrübəsinə əsaslanan dövlət qurulması məsələsini bütün kəskinliyi və zəruriliyi ilə qarşıya qoymuşdur. Hesab edirəm ki, həyat fəaliyyətinin bütün sahələrini əhatə edən qlobal proseslər bəşəriyyətin ilk növbədə siyasi sahədə axtarış imkanlarının səfərbər edilməsinə gətirib çıxaracaq”.

Qeyd olundu ki, müasir dövrün yeni lideri olan İlham Əliyevin dövlətimizə rəhbərlik illərində ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələrdə imza atdığı çoxsaylı uğurlar, Azərbaycanın regionda nüfuz, güc sahibinə çevrilməsi, modernləşməsi Ulu Öndər Heydər Əliyevin uzaqgörənlik nümunəsi olmasının növbəti təsdiqidir.

Ardı 8-ci səh.



## Ölkələrin koronavirusdan xilası: karantin rejimi yenidən sərtləşdirilir

“Pandemiya güclənir: yeni yoluxma hallarının sayı rekord həddə - gündə 183 minə çatıb. Biz dünyanın bütün ölkələrini əhalinin sağlamlığının qorunması sahəsində tədbirləri gücləndirməyə çağırırıq”. Bunu ötən gün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Gebreyesus bildirib.

ÜST-ün iyunun 23-nə olan hesabatına görə, dünyada təsdiqlənən koronavirusa yoluxma sayı 9,3 milyonu, ölənlərin sayı 469 mini keçib. Ən çox yoluxma və ölüm halları Cənubi və Şimali Amerikada qeydə alınıb. İkinci yerdə Avropa regionu qərarlaşıb. Üçüncü yeri isə Qərbi-Sakit okean regionu tutur.

COVID-19 infeksiyası yeni yayılmağa başladığı zamanlar mütəxəssislər ümid edirdilər ki, havalar isindikcə günəşin ultrabənövşəyi şüaları virusu məhv edəcək. Lakin sonradan bu proqnozlar nəinki özünü doğrultmadı, əksinə, yay aylarında yoluxma daha da artdı. Son zamanlar isə COVID-19 infeksiyası daha aqressiv və aktiv olmağa başlayıb - xəstələrin sağalma müddəti uzanıb, yoluxanlar arasında gənclər çoxdur və sairə. Məhdudiyyətlərin yumşaldılması da virusun yenidən sürətlə yayılmasına səbəb olub.

Ardı 7-ci səh.

## İlham Əliyevin hücum diplomatiyası erməni yalanlarını darmadağın edir

Dövlətlərin dünyadakı nüfuzunu şərtləndirən bir çox amillər mövcuddur ki, onların sırasında iqtisadi inkişaf, qlobal və regional məsələlərdə söz sahibi olmaq, müstəqil siyasət yürüdə bilmək kimi məsələlər xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycanın beynəlxalq aləmdəki yerinin və rolunun, malik olduğu imicin məhz bu cür prinsiplər əsasında formalaşması müasir tariximizin ən böyük reallığıdır.

### Azərbaycan vəziyyəti öz xeyrinə dəyişir

Azərbaycanın ən böyük uğurlarından biri odur ki, artıq bir sıra siyasi mərkəzlər ölkəmizlə təzyiq dilində danışmağın faydasız olduğunu anlayır. Eyni zamanda İlham Əliyevin hücum diplomatiyasının real müsbət nəticələr verdiyi göz önündədir. Bir vaxtlar Azərbaycana qarşı kəskin qərəzli qətnamələr qəbul edən Avropa Parlamenti ilə bağlı məsələlərdə dönüş yaranması bunun təsdiqidir. Məlum olduğu kimi, bir müddət əvvəl bu təşkilat respublikamızla bağlı mütəmadi olaraq qərəzli, saxta informasiyalara hesablanan qətnamələr qəbul edir, Azərbaycanı hər addımda hədəfə alırdı. Lakin proseslərin sonrakı gedişi göstərdi ki, öz yolu, müstəqil siyasəti olan Azərbaycan dövlətinə təsir etmək mümkün deyil. Respublikamız hər zaman öz milli maraqlarına uyğun inkişaf yolu ilə uğurla irəlilədi və hansısa qərəzli qətnamələr bizim üçün kağız parçasından başqa bir şey olmadı. Prezident İlham Əliyevin dediyi “müstəqil siyasətin alternativi yoxdur və gec-tez hər kəs bu siyasətlə hesablaşacaq” fikri isə AP-nin sonradan ölkəmizə münasibətinin dəyişməsi fonunda öz təsdiqini tapdı.

Bu prosesdə ən mühüm məqamlardan biri də Azərbaycanın hücum diplomatiyasının hətta bir vaxtlar respublikamıza qarşı kəskin mövqedə dayanmış AP səviyyəsində belə uğur qazanmasıdır. Bir neçə gün əvvəl AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand, Azərbaycan üzrə məruzəçisi Jelena Zavko və Ermənistan üzrə məruzəçisi Trayan Baseskunun Ermənistan ilə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı yaydıqları birgə bəyanat bunu təsdiq edir.

Ardı 8-ci səh.

# Prezidentin Gəncə şəhərinə və Samux rayonuna səfəri

## Yeni istehsal müəssisələri yaradılır





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncədə "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma müəssisənin fəaliyyəti barədə məlumat verildi.

Prezident İlham Əliyev zavodu işə saldı.

Məlumat verildi ki, müəssisədə süni mərmər, keramoqranit - yəni, yer və divar üzlükləri, metlax və quru inşaat qarışıqları istehsal ediləcək. Hazırda burada illik istehsal gücü 40 min ton astar və 20 min ton üzlük olan tikinti materialları istehsalı zavodu tikilib və avadanlıqları quraşdırılıb. Məhsulların hazırlanmasında istifadə olunan xammal Daşkəsən, Şəmkir, Ağstafa və Qaradağ rayonlarından gətirilir. Müəssisənin illik istehsal gücü - 3 milyon kvadratmetr olacaq. Burada hazırlanan məhsulların Rusiya Federasiyasına, Gürcüstana və Orta Asiya respublikalarına satışı nəzərdə tutulur. Zavodda 300-dən çox yeni iş yeri yaradılıb.

Zavodun direktoru Anar Məmmədov bildirdi ki, müəssisənin ümumi dəyəri 46,5 milyon manatdır. Onun 10 milyon manatı güzəştli kreditdir. Ümumi dəyəri 32 milyon manat olan investisiya təşviqi sənədi alınmış və 6 milyon manat vəsaitə qənaət olunub.

Qeyd edək ki, ölkəmizin hər yerində olduğu kimi, Gəncədə də sahibkarlığa ümumi iqtisadi inkişafın mühüm subyekti kimi baxılır. 2004-cü ildən bəri Sahibkarlığın İnkişafı Fondu tərəfindən Gəncədə 498 sahibkara 51,2 milyon manat kredit verilib. Bu da şəhərdə yeni istehsal müəssisələrinin yaradılmasına şərait yaradıb.

## Dövlət əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına xüsusi önəm verir



**İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma tikinti işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən 2020-ci ilin fevral ayında Gəncə şəhərinin Azərbaycan Bayrağı küçəsində yaşayış kompleksinin tikintisinə başlanılıb. Kompleksə 18 çoxmənzilli bina və əsaslı təmirə ehtiyacı olan 28 və 46 nömrəli ümumtəhsil məktəbləri üçün bina, uşaq bağçası və digər xidmət obyektləri daxildir. Cari ilin avqust ayında ümumtəhsil məktəbi binasının və 2021-ci ilin sonunadək 11 yaşayış binasının istismara verilməsi nəzərdə tutulub. Layihəyə əsasən, yaşayış binaları doqquz və on iki mərtəbəli olacaqdır.

Mənzillər vətəndaşlara tam təmirli, mətbəx mebeli və qaz plitəsi, fərdi kombi sistemi və digər texniki avadanlıqlarla təchiz olunmuş vəziyyətdə təklif ediləcək. Kompleksin ərazisində yaşıllıq zonaları, uşaq meydançaları yaradılacaq. Qeyd edək ki, bu kompleksin tikintisi demoqrafiq inkişafa uyğun olaraq əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün dövlət başçısının qarşıya qoyduğu vəzifələrin həllində mühüm əhəmiyyət kəsb edəcək.

## Prezidentin tapşırığı ilə "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksi yenidən bərpa olunub







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncədə "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksinin bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma kompleksdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Gəncənin şəhər kimi inkişafı Böyük Şah Abbasın adı ilə bağlıdır. Şəhərin tarixən formalaşmış mərkəzi hissəsi gəncəlilər tərəfindən "Şah Abbas meydanı" adlandırılan bazar meydanı olub. Özünəməxsus memarlıq elementlərinə görə Gəncənin baş meydanı Azərbaycanın əksər şəhərlərindəki bazar meydanlarından seçilib. Bu meydan XVII əsrdə böyüklüyünə görə yalnız Təbrizin bazar meydanından geri qalırmış. Ehtimal olunur ki, bazar meydanının ətrafında "Şah Abbas" karvansarası 1663-1664-cü illərdə Gəncə bəylərbəyi olmuş Murtuza Qulu xan Ziyad oğlunun qardaşı oğlu Uğurlu xanın vəsaiti ilə memar Şeyx Bahəddin Məhəmməd Amilinin planı üzrə tikilmiş və xan nəslinə məxsus olmuşdur. Karvansara dövrünün əzəmətli tikililərindən olduğundan Uğurlu xan ona böyük hökmdar Şah Abbasın adını verib.



Eyni dövrdə tikilmiş nisbətən kiçik həcmli karvansara isə əhali arasında "Uğurlu Xan" karvansarası adlandırılmışdır. XIX əsrin birinci yarısında Rusiya-İran müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin böyük şəhərlərində rus hərbi qarnizonları yerləşdirilmiş və rus qoşunları tərəfindən bütün xan mülkü kimi karvansaralar da müsadirə edilmişdir. Bu və digər səbəblərdən abidə öz görkəmini itirmişdi. Prezident İlham Əliyevin müvafiq göstərişlərinə əsasən "Şah Abbas" karvansarası əsaslı şəkildə əvvəlki görkəminə uyğun və müasir infrastrukturla təmin edilməklə yenidən bərpa olunub, ətraf ərazi abadlaşdırılıb.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyevə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyində yığılmış avtobus və kombayn nümunələri təqdim olundu.

Məlumat verildi ki, 2019-cu ildə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə Belarusun "Belkommunmaş" ASC arasında bağlanmış ikitərəfli müqavilələr çərçivəsində müəssisədə "E-321" markalı elektrobusun istehsalına başlanılıb və bugünədək 4 elektrobus yığılıb. Bu ictimai nəqliyyat vasitəsi həm ekoloji, həm də yanacağa qənaət baxımından çox sərfəlidir. Avtobuslar kondisionerlə, həmçinin məlumat monitoru və videonəzarət sistemi ilə təmin olunub.

Diqqətə çatdırıldı ki, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyində yeni müasir kombaynların yığılmasına da başlanılıb. Bu layihənin icrası Finlandiyanın tanınmış "Sampo" firması ilə əməkdaşlıq müqaviləsi əsasında həyata keçirilir. Mütəxəssislərin fikrincə, bu texnika Azərbaycan şəraitində özünü kifayət qədər doğrultmaqla fermerlərin marağına səbəb olacaq.

# bir daha göstərdi ki, heç bir sosial layihə təxirə salınmayıb

# Prezidentin gündəliyində koronavirusla mübarizə birinci plandadır

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

Sonuncu xəstəxana Samux şəhərində istifadəyə veriləcəkdir. Bu məqsədlər üçün vəsait ayrıldı və əlavə vəsait də ayrılacaq. Bu gün Bakı şəhərində koronavirus xəstələri daha çox son illər ərzində inşa edilmiş xəstəxanalarda müalicə alırlar. Xüsusilə "Yeni klinika"nı qeyd etməliyəm. O, ölkəmizdə ən gözəl, ən müasir klinikadır və ən böyük tibb ocaqlarından biridir. Təxminən 600 çarpayılıq klinikada bu gün xəstələr müalicə alır. Eyni zamanda, bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə tikilmiş Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik və Cərrahiyyə korpuslarının fəaliyyəti hesabına biz xəstələri müalicə edirik.

Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu. Çünki Azərbaycanda yoluxanların sayı əhalinin ümumi sayı ilə müqayisədə çox aşağıdır. Cəmi 13 min insan yoluxmuşdur. Onların böyük əksəriyyəti sağalıb və xəstəxanalardan çıxıbdır. Ona görə qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin çox böyük faydası olmuşdur.

Bildiyiniz kimi, bütün dünya bu xəstəlikdən əziyyət çəkir və xəstələrin sayının kəskin artması bir çox ölkələrin səhiyyə sisteminə də böyük zərbə vurmuşdur. Əslində, heç bir ölkənin səhiyyə sistemi belə sürətlə artan xəstələrin müalicəsinə hazır deyildi. Bu, mümkün də deyildi. Eyni zamanda, digər problem xəstələrə xidmət edən həkimlərin sayı ilə bağlıdır. Həkimlərin sayı 2-3 ay ərzində arta bilməz. Ona görə bu da bir çox ölkələr üçün böyük problemə çevrilmişdir, o cümlədən bizim üçün. Odur ki, məhdudlaşdırıcı tədbirlərin görülməsində böyük fayda olmuşdur. Bildiyiniz kimi, may ayının əvvəlindən artıq yumşalma meyilləri başlamışdır. Bunun da səbəbi o idi ki, bir daha qeyd etmək istəyirəm, sağalanların sayı yoluxanların sayından çox idi.

Ancaq son müddətin dinamikası göstərir ki, bizim bütün tələblərimizə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər. Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik. Çünki görürdük ki, xəstələnənlərin sayı, dinamikası artır və əgər belə gedərsə, bizim də səhiyyə sistemimiz buna davam gətirə bilməz. Ona görə bu həftənin əvvəlindən Bakı şəhərində və bir neçə digər şəhərlərdə daha da sərt karantin rejimi tətbiq edilir. Bunun əsas və yeganə səbəbi odur ki, əfsuslar olsun, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər. Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək.

Həkimlər yaxşı bilirlər və artıq ictimaiyyətə də dəfələrlə bu fikir çatdırılıb ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir.

Bizdə də bu problemlər var, beş ayın nəticələri onu göstərir ki, bizim iqtisadiyyatımız da tənəzzülə uğrayıb. O qədər də böyük tənəzzül deyil - cəmi 1,7 faiz. Ancaq biz ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirmişdik. Bizim çox böyük planlarımız, çox gözəl perspektivlərimiz var idi. Bütün aparıcı beynəlxalq maliyyə qurumları da 2020-ci ili Azərbaycanda sürətli inkişaf ili kimi görürdülər və bunu bəyan edirdilər. Biz şüurlu şəkildə məhdudlaşdırıcı tədbirləri gördük və deyə bilərəm, dünyada ilk ölkələrdən idik ki, bütün lazımi məhdudlaşdırıcı tədbirləri gördük, məktəbləri, ali məktəbləri, ictimai iaşə obyektlərini, böyük ticarət mərkəzlərini bağladıq ki, kütləvi yoluxmanın qarşısı alınsın.

Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir. Əlbəttə, iqtisadiyyat tənəzzülə uğrayır və hələ bəlli deyil ki, ilin sonuna qədər bizi hansı problemlər gözləyir. Hər kəs bunu bilməlidir. Eyni zamanda, dünya bazarlarında neftin qiyməti hələ də sabitləşməyib. Əlbəttə, o böyük çökmənin qarşısı alınıb və neftin qiyməti tədricən bərpa edilib. Ancaq Azərbaycan








büdcəsi neftin qiymətinin 55 dollarına hesablanıb və beş ayın nəticəsində neftin orta qiyməti 41 dollardır. Ona görə bizim gəlirlərimiz azalır. Bir neçə önəmli iqtisadi sahə, demək olar ki, fəaliyyətsiz qalıb. Onların biri turizm sahəsidir. Biz son 4-5 il ərzində turizm sahəsini çox güclü və təkanverici sektor kimi formalaşdırmışdıq və ildən-ilə Azərbaycana gələn turistlərin sayı artırdı. Keçən il rekord həddə çatmışdır, ölkəmizə 3 milyon xarici vətəndaş gəlmişdir. Müxtəlif hesablamalara görə, onlar Azərbaycanda təqribən bir yarım - iki milyard dollar pul xərcləyiblər. Bu, ölkəmizə gələn valyutanın artması deməkdir. Yəni, biz bundan məhrum olduq.

Bir neçə başqa sektor artıq uzun müddətdir ki, fəaliyyətsizdir. Dövlət o sektorların və orada çalışan insanların problemlərini öz üzərinə götürübdür. Biz indi 600 mindən çox insanı lazım olan vəsaitlə təmin edirik və 190 manatın verilməsi müddəti uzadıldı, baxmayaraq ki, bu da böyük yükdür və böyük xərclər deməkdir. Amma biz bunu edirik. Çünki işini itirmiş, yaxud da ki, aztəminatlı təbəqəyə aid olan, hətta qeyri-rəsmi şəkildə işləyən insanlar faktiki olaraq çətin vəziyyətdə qalıblar və kim onlara kömək edəcək?! Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır.

Ona görə həm birinci mərhələdə - sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda və bu gün biz məcbur olub növbəti dəfə bu addımlara getdik, şəxsən mənim üçün seçim yox idi. İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır. İqtisadi problemlər arxa planda olmalıdır.

Bir də ki, biz son illər ərzində görülmüş işlər, aparılmış islahatlar nəticəsində iqtisadi gücümüzü böyük dərəcədə artırmışıq. Bizim iqtisadiyyatımız sabit, dayanıqlı iqtisadiyyatdır. Hesab edirəm ki, bu ilin sonuna qədər iqtisadi sahədə problemlər kəskinləşsə də, insanların həyat tərzinə bunun böyük təsiri olmayacaqdır. Heç bir sosial layihə ixtisar edilməyib. Bu gün mənim Gəncəyə səfərim çərçivəsində açılan və açılacaq obyektlərin sayı onu göstərir. Heç bir sosial layihə ixtisar edilməyib, əksinə, biz 10 modul tipli xəstəxananın tikintisini təmin edirik. Biz məcburi köçkünlər üçün yeni şəhərciklər salırıq. Onlardan biri də Samux rayonundadır. Yeni məktəblər tikilir. Bu gün Gəncədə Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə yeni yaşayış kompleksinin tikintisi ilə tanış olmuşam. Orada da məktəb, bağça tikilir. Bütün bunlar dövlət büdcəsi hesabına təmin edilib.

Mən demişəm ki, sosial sahədə heç bir ixtisar olmayacaq. Hesab edirəm ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır. Keçən il isə, - hər kəs yaxşı bilir, - çox böyük sosial paket tətbiq olundu. Minimum əməkhaqqı orta hesabla iki dəfə, minimum pensiya 70 faiz artdı. Müavinətlər 50 faiz, 100 faiz artdı. Problemli kreditlər kompensasiya şəklində insanlara maddi hədiyyə olaraq verildi. Yəni, bu məqsədlər üçün milyardlarla manat xərcləndi. Pandemiyaya qarşı mübarizə üçün 3 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bu vəsaitin bir hissəsi xərcləndi və biz yeni avadanlıqlar alırıq. İndi 23 laboratoriyamız var. Amma, eyni zamanda, problem ondadır ki, artıq fevral, mart aylarında sifariş edilmiş avadanlığı, hansısa cihazı biz bəzən ala bilmirik. Çünki bunu istehsal edən ölkələr onu satmır, özləri üçün saxlayırlar. Problem bundadır.

Ona görə ölkəmiz bu problemlə üzləşib və biz çalışmalıyıq ki, bu vəziyyətdən şərəflə çıxaq. Ancaq dövlət tərəfindən atılmış addımlar əgər kütləvi surətdə ictimaiyyət tərəfindən dəstəklənməsə, bunun xeyri olmayacaq. Dəstək isə nədən ibarətdir? Sadəcə olaraq, üç adi qaydanı gözləmək, buna əməl etmək və məsuliyyət, nizam-intizam göstərmək. Biz birlik, həmrəylik nümayiş etdirmişik. Çətin vəziyyətdə olan insanların problemlərini həll edirik, o cümlədən ictimai təşkilatlar, Heydər Əliyev Fondu. Əlbəttə ki, əsas yük dövlətin üzərindədir. Aztəminatlı təbəqəyə yardımlar edilir. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna sahibkarlar, ayrı-ayrı adamlar tərəfindən 100 milyon manatdan çox vəsait daxil edilib. Bu, böyük vəsaitdir və həmrəyliyin təzahürüdür. Necə ki, həmrəylik, birlik göstəririk, məsuliyyət də göstərməliyik. Bunu inkişaf etmiş bir neçə ölkənin liderləri qeyd edir ki, bu, müharibədir və burada düşməni görmək mümkün deyil. Eyni zamanda, bilmək mümkün deyil, bu müharibə nə vaxt bitəcək. Bunu heç kim deyə bilməz. İndi əlbəttə ki, hər kəs peyvəndi gözləyir, o cümlədən də biz. Amma bəzi həkimlərin fikrinə görə, peyvənd də bəlkə bu koronavirusu tam məhv edə bilməyəcək. Kim bilir? Bu peyvənd hələ icad edilməyib. Hələ bunun üzərində iş aparılır. Amma yoluxanların sayı artır, beləliklə, təhlükə də artır. Ona görə burada ancaq və ancaq vətəndaşların məsuliyyəti ön planda olmalıdır.

Dövlət nə lazımdırsa, onu edir. Bundan artıq nəsə etmək mümkün deyil. Çünki nə lazım idisə, biz onu etmişik və edəcəyik. Bu məqsədlər üçün istənilən vəsaiti xərcləməyə hazırıq, vəsaitimiz də var və heç kimdən də asılı deyilik. Bəzi ölkələrdən fərqli olaraq, heç kimə müraciət etmirik. Onu da bildirməliyəm ki, beynəlxalq maliyyə qurumlarının məlumatına görə, dünyada 150 ölkə kredit üçün müraciət edib. Yəni, beynəlxalq birliyin əksər hissəsi. Azərbaycan etməyib. Çünki ehtiyac yoxdur. Özümüz edirik, vəsaitimiz də var və xərcləyirik. Amma gərək indi məsuliyyətsiz adamlar bunu dərk etsinlər. Bir də ki, bu adamlara qarşı ictimai qınaq olmalıdır. Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma, eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır. Gözləməməlidir ki, polis gələcək, onu cərimələyəcək. Polis də insanları qorumaq üçün gecə-gündüz küçələrdədir, gecə-gündüz fasiləsiz işləyir. Ona görə qapalı şəraitdə hər kəs maska taxmalıdır.

Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik. Gənc nəslin nümayəndələri üçün bu xəstəlik o qədər də təhlükəli deyil və hesab edir ki, xəstələnərəm, sağalaram. Axı, yaxşı sən sağalarsan, amma sən yaşlı insanı da yoluxdurarsan. Sən onun həyatını təhlükə altına atırsan. Biz bu məsuliyyətsizliyə dözməliyikmi? Çünki bu, cinayətdir. Ona görə ictimai qınaq və çox ciddi dövlət nəzarəti olmalıdır. Mən bu məsələ ilə bağlı Operativ Qərargaha göstəriş verdim ki, çox ciddi dövlət nəzarəti olmalıdır. Belə olan halda biz bütün tədbirləri daha operativ şəkildə görə bilərik və bu vəziyyətdən az itkilərlə çıxa bilərik. Mən demişəm və həkimlər yaxşı bilir. Bir xəstənin müalicəsi üçün nə qədər həkim çalışır, nə qədər həkim gecə-gündüz o ağır vəziyyətdə, o kombinezonda, eynəkdə, maskada əziyyət çəkir. Biz həkimlərin fəaliyyətini yüksək qiymətləndiririk. Ancaq hər bir insan bunu bilməlidir. Həkimlər də yoluxur, həkimlər də ölür. Bir daha demək istəyirəm ki, bizim indi nə qədər həkimimiz var, hamısını bu işlərə cəlb edirik. Bizim bundan iki dəfə çox həkimimiz yoxdur. Sabah bu pandemiya daha geniş vüsət alsa, əgər bu gün, misal üçün 300-400 adam yoluxursa, sabah daha çox adam yoluxarsa, bunları biz harada yerləşdirəcəyik. Tutaq ki, yerləşdirdik, indi xəstəxanalar tikilir və bizim boş çarpayılarımız var, ancaq həkimlərin sayını necə artıra bilərik?! Gərək hər kəs bu haqda fikirləşsin, hər kəs düşünsün.

İdarələrdə idarə rəhbərləri görəndə ki, onun işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir. Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar. Çünki indi böyük imkanlara sahib olan adamlar nə üçün 50 manat, 100 manat cərimə verirlər. O çıxır, maşınına oturur, hara istəyir gedir. Tutaq ki, onu saxladılar, saxlamadılar, onu da hələ bilmək olmur. Çünki hər kəsi saxlamaq da mümkün deyil. Cəriməni verir gedir, sonra istədiyini edir. Ona görə mən tapşırıq vermişəm ki, dövlət orqanları, yerli icra orqanları, hüquq mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olmalıdır. Çünki bu, milli təhlükəsizlik məsələsidir.

İndi görün inkişaf etmiş ölkələrdə nələr baş verir. Vəziyyət tamamilə böhran həddinə çatıb. O ölkələrin ki, dövlətçilik ənənələri yüzilliklərlə ölçülür və o ölkələrin səhiyyə sistemi dünyada nümunə kimi təqdim olunur, onlar da bacarmırlar, çünki bu, mümkün deyil. Ona görə mənim bu sözlərim hesab edirəm, hər kəs üçün əsas olmalıdır - həm vətəndaşlar üçün, - onlar daha məsuliyyətli olmalıdırlar, - həm də vəzifə tutanlar, dövlət məmurları üçün. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır. Əgər biz görsək ki, nizam-intizam bundan sonra da pozulur, onda fikirləşərik, daha hansı təsirli addımlar atılsın ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülsün.

Bütün bunlarla bərabər, eyni zamanda, deməliyəm ki, həyat davam edir. Biz bu il nəzərdə tutulmuş bütün proqramları icra etməliyik. Bu gün Gəncə şəhərində bir neçə vacib obyektin açılışı nəzərdə tutulur. Mən bu gün artıq yeni zavodun açılışında iştirak etdim. Mənə verilən məlumata görə, orada 300-dən çox insan işlə təmin ediləcək. Bu zavodda istehsal olunan məhsullar idxalı əvəzləyəcək və yerli bazarı təmin edəcək.

Gəncə şəhərinin tarixi abidələrinin bərpası ilə əlaqədar mənim tərəfimdən müvafiq göstərişlər verilib. Yaxşı bilirsiniz ki, bütün xalqımız üçün çox əziz və müqəddəs olan "İmamzadə" tarixi-dini kompleksinin yenidən qurulması, onun genişləndirilməsi, orada məscidin tikilməsi və digər tikililərin yaradılması təmin edilib. Bu gün "Şah Abbas" və "Uğurlu Xan" karvansaralarının bərpadan sonra açılışını edəcəyik. Mənim göstərişimlə Gəncə şəhərində ikinci "ASAN xidmət" mərkəzi fəaliyyət göstərəcək. Çünki indi şəhərin əhalisi çoxalır və "ASAN xidmət" mərkəzlərində xidmətlərin sayı artır. Ona görə növbələr yaranır. Göstəriş vermişəm, yaxın zamanlarda ikinci "ASAN xidmət" də istifadəyə veriləcəkdir. Gəncə Dövlət Dram Teatrının binasının tikintisi gedir. Yadımdadır, mənim Gəncəyə səfərlərimin birində Dram Teatrının artistləri mənə müraciət etmişdilər. Mən bu müraciəti qəbul etdim və göstəriş verdim gözəl dram teatrı tikilir. İkinci olimpiya idman mərkəzi tikilir. Çünki o vaxt birinci mərkəz tikiləndə mən hələ Prezident vəzifəsində deyildim, Milli Olimpiya Komitəsinin prezidenti kimi bu işi icra etmişdim. Ancaq ikinci idman kompleksinə ehtiyac var.

Bilirsiniz ki, mənim göstərişimlə Gəncə Dövlət Filarmoniyası tikilib və bu, çox gözəl memarlıq abidəsidir. Eyni zamanda, lazım olan infrastruktur layihələri icra edilir. Bildirməliyəm ki, ölkəmizdə birinci "Yaşıl şəhər" layihəsi mənim göstərişimlə Gəncə şəhərində həyata keçiriləcək. Bu məqsədlə biz Avropa Yenidənqurma və İnkişaf Bankından təqribən 70 milyon avro dəyərində kredit götürürük. Onu da bildirməliyəm ki, bu gün mənim göstərişimlə kreditlərin götürülməsi ancaq müstəsna hal kimi mümkündür. Çünki bizim özümüzün kifayət qədər vəsaitimiz var. Mən istəyirəm ki, bizim xarici dövlət borcumuz daha da aşağı düşsün. Baxmayaraq ki, indi də 20 faizin altındadır. Ancaq strateji və texnologiya tutumlu layihələr üçün kreditlər götürürük və bu kreditin götürülməsinə mən icazə verdim. Gəncədə icra ediləcək "Yaşıl şəhər" layihəsi ictimai nəqliyyatı əhatə edəcək. Ondan sonra küçələrin işıqlandırılması, - bilirəm, bu məsələ ilə bağlı problem var, - bir də bərk məişət tullantılarının utilizasiyası. İlkin mərhələdə insanları narahat edən bu üç məsələ öz həllini tapacaqdır. Əlbəttə ki, biz bundan sonra da dövlət büdcəsi hesabına bütün lazımi addımları atacağıq.

Mən Gəncə şəhərinə müntəzəm olaraq gəlirəm. Bu səfərim Prezident kimi 16-cı səfərdir. Yəni, orta hesabla ən azı ildə bir dəfə mən Gəncədə oluram. Gəncə bu gün ölkəmizin həm sənaye mərkəzinə çevrilir, həm mədəniyyət mərkəzidir, həm də böyük tarixi var. Əlbəttə ki, tarixin qorunması hər birimizin işidir.

Eyni zamanda, çox şadam ki, son vaxtlar kənd təsərrüfatının sürətli inkişafı və kənd təsərrüfatı ilə məşğul olan insanların maliyyə vəziyyətinin yaxşılaşdırılması nəticəsində bu sahəyə böyük maraq var. Dövlət Aqrar Universitetinə müraciətlərin sayı artır. Artıq yeni korpusun tikintisi başa çatır, bu gün tanış olacağam. Ölkəmiz üçün lazım olan mütəxəssislər Gəncədə yetişdiriləcək.

Yenə də demək istəyirəm, həyat davam edir. Bütün lazımi işlər görülür. Ancaq, əlbəttə ki, bizim gündəliyimizdə koronavirusla mübarizə birinci plandadır. Burada bütün dövlət tədbirləri ilə bərabər, əsas vəzifə həkimlərin üzərinə düşür. Bir daha demək istəyirəm ki, həkimləri mən salamlayıram, onların fəaliyyətini yüksək qiymətləndirirəm. Bu yaxınlarda həkimlər öz peşə bayramlarını qeyd etmişlər. Bu münasibətlə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Koronavirusla bağlı mübarizədə siz ön cəbhədəsiniz və öz sağlamlığınızı, həyatınızı, yaxınlarınızın sağlamlığını risk altına qoyursunuz. Ancaq sizdə olan vətəndaşlıq borcu sizi bu işlərə sövq edir.

Sizə uğurlar, cansağlığı arzulayıram. Özünüzə yaxşı baxın, xəstələrə yaxşı baxın ki, biz birlikdə bu ağır vəziyyətdən az itkilərlə çıxaq. Sağ olun.

Həkim **Xalidə SADIQOVA** dedi:

- Möhtərəm cənab Prezident, mən Sizi və hörmətli Mehriban xanımı Gəncə tibb işçiləri və gəncəlilər adından salamlayıram. Yeni növ koronavirus infeksiyasının ölkəmizdə geniş miqyasda yayılmasına qarşı Sizin tərəfinizdən bir çox mühüm tədbirlər görülüb və görülməkdədir. Bu tədbirlərdən biri də yeni tipli modul xəstəxanaların açılması, onların müasir tibbi avadanlıqlarla, dərmanlarla təchizatıdır. Bu gün modul tipli xəstəxananın Gəncədə açılması, tək Gəncədə deyil, Gəncəətrafı rayonlarda yaşayan, yoluxan insanların xəstəxanalara təcili təxliyə olunması, onların yüksək səviyyədə müalicə edilməsi üçün çox vacibdir. Biz həkimlər də bundan yararlanıb Sizə söz veririk və əmin edirik ki, bu çətin günlərdə əlimizdən gələni var gücümüzlə edəcəyik. Xalqımızın sağlamlığının qorunması istiqamətində səylərimizi əsirgəməyəcək və Sizin dəstəyinizlə, İnşallah, bu çətin sınaqdan alnıaçıq çıxacağıq.

Mehriban xanım, fürsətdən istifadə edib Gəncə səhiyyə işçiləri adından həmişə bizə dəstək göstərdiyiniz üçün Sizə də dərin təşəkkürümü bildirirəm. Sizə və ailənizə cansağlığı, böyük işlərinizdə uğurlar arzulayıram.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Çox sağ olun.

**Xalidə SADIQOVA:** Allah Sizləri qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Həkimləri bir daha alqışlayaq.

**Həkimlər:** Sağ olun.

# Prezidentin Gəncə şəhərinə və Samux rayonuna səfəri

## Prezident İlham Əliyev Gəncə Dövlət Dram Teatrının yeni binasının tikintisi ilə tanış olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə Dövlət Dram Teatrının yeni binasında tikinti işlərinin gedişi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma binada aparılan tikinti işləri barədə məlumat verildi.

Bildirildi ki, teatrın yeni binasında inşaat işləri artıq tamamlanmaq üzrədir. Hazırda teatrda dekorasiya və digər işlərin yerinə yetirilməsi istiqamətində tədbirlər görülür. Binada geniş tamaşaçı tutumlu zal və digər yardımçı otaqlar yerləşəcək.

Qeyd edək ki, Gəncə Dövlət Dram Teatrının yeni binasının təməli 2014-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə qoyulub.

Dövlət başçısı teatrın binası ilə tanışlıqdan sonra tövsiyə və tapşırıqlarını verdi.



## Gəncəçay çayı üzərində eyni vaxtda beş körpü bərpa edilib





**Gəncədə aparılan tikinti, abadlıq-quruculuq işləri arasında yolların, keçidlərin, körpülərin tikintisi və təmiri də əsas prioritetlərdəndir. Son vaxtlar Gəncəçay çayı üzərində eyni vaxtda beş körpünün bərpası başa çatdırılıb.**

AZƏRTAC xəbər verir ki, iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin körpülərdə görülmüş işlərlə tanış oldular.

Bildirildi ki, bu beş körpüdən biri - Müseyib Bağırov küçəsinin Gəncəçay çayı ilə kəsişmədə yerləşən körpü 1986-cı ildə, digər dördü isə ötən əsrin 50-ci illərində tikilib. Körpülər tamamilə köhnəldiyindən gediş-gəliş üçün təhlükəli vəziyyətə düşmüşdü. Bunu nəzərə alaraq dövlət başçısı keçən il mayın 16-da Gəncə şəhərinin Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektlərinin, Müseyib Bağırov, Mirzə Abbas Abbaszadə və Əlövsət Məmmədov küçələrinin Gəncəçay çayı ilə kəsişmələrində yerləşən və qəzalı vəziyyətdə olan 5 körpünün bərpası üçün Prezidentin Ehtiyat Fondundan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılması barədə sərəncam imzalamışdı. Həmin vəsait hesabına körpülərdə təmir-bərpa işləri optimal müddətdə başa çatdırılıb. Bütün körpülərin hərəkət hissəsinin, məhəccərlərin, çay məcrasının aşağı və yuxarı hissələrinin, sağ, sol sahil yamaclarının dəmir-betonla bərkidilməsi işləri aparılıb, hərəkət hissəsinin hər iki tərəfində təkərqaytaranlar quraşdırılıb, səkilər təmir olunub. Beləliklə, bundan sonra həm piyadalar, həm də avtomobillər bu körpülər üzərindən təhlükəsiz hərəkət edə biləcəklər.

Burada dövlət başçısına tikintisi başa çatmış yollar barədə də məlumat verildi. Qeyd edildi ki, Gəncə-Kəlbəcər-Laçın avtomobil yolunun 5 kilometrlik hissəsinin yenidən qurulması bu bölgədə turizmin inkişafında böyük rol oynamaqla Gəncə şəhərindən giriş-çıxışı yaxşılaşdıracaq. Kənd və qəsəbələrarası yolların yenidən qurulması layihələri çərçivəsində Samux rayonunda da uzunluğu 12,7 kilometr olan Yenikənd-Köbər-Qaraağaclı avtomobil yolu yenidən qurulub. Bu yol 3 yaşayış məntəqəsini əhatə etməklə minlərlə əhalinin gediş-gəlişini rahatlaşdırıb. Paralel olaraq yolun altında mövcud suötürücü borular bərpa edilib, zəruri olan yerlərdə yeniləri qurulub. Layihə çərçivəsində yolun 11-ci kilometrində "Qanlı Qobu" adlanan ərazidə yeni körpü inşa edilib.

## Azərbaycan Dövlət Aqrar Universiteti tamamilə yenidən qurulur





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncəyə səfərləri çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım yeni tədris korpusunda yaradılan şəraitlə tanış olublar.

Diqqətə çatdırılıb ki, ölkədə ərzaq probleminin həllində önəmli rola malik olan kənd təsərrüfatının elmi əsaslarla inkişafında həmişə mühüm rolu olmuş bu ali təhsil müəssisəsi son illər tamamilə yenidən qurulur. Azərbaycan Prezidentinin 2018-ci il 22 yanvar tarixli sərəncamına əsasən, dövlət əsaslı vəsait qoyuluşu - investisiya xərcləri hesabına tikilmiş yeni tədris korpusunda müasir təfəkkürlü kadrların hazırlanması, eləcə də elmi tədqiqatların səmərəli aparılması üçün hər cür şərait yaradılıb. Professor-müəllim heyətinin və tələbələrin ixtiyarına ən yeni əyani vasitələr və avadanlıqla təchiz olunmuş auditoriyalar və laboratoriyalar verilib. Binada bütün zəruri infrastruktur qurulub. İnzibati xidmət və digər yardımçı otaqlar yaradılıb. Yeni tədris korpusunda ümumilikdə 3 min tələbə iki növbədə təhsil alacaq.

Bildirilib ki, yeni tədris korpusunda aqronomluq, zootexniklik istiqaməti, ictimai elmlər və multikulturalizm kafedraları, interaktiv təlim-tədris otaqları fəaliyyət göstərəcək. Bu korpusun istifadəyə verilməsi bir də ona görə əlamətdardır ki, burada əlavə 93 nəfər üçün yeni iş yeri açılacaq.



## Gəncə şəhərində daha bir möhtəşəm idman kompleksi tikilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Gəncə İdman Sarayının tikintisi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısının müvafiq sərəncamı ilə Gəncə şəhərində daha bir möhtəşəm idman kompleksi tikilməkdədir. Gəncə İdman Sarayının 2022-ci ildə istismara verilməsi nəzərdə tutulur. İkimərtəbəli bu qurğuda böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq şahmat turnirlərinin keçirilməsi üçün zal, şahmat, güləş, boks və digər idman növləri üzrə məktəblər, boulinq və atıcılıq zalları, istirahət və iaşə obyektləri fəaliyyət göstərəcək. İdman sarayı ən müasir avadanlıqla təchiz olunacaq.

Gəncə İdman Sarayında inşaat işlərinin gedişi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev tikintinin keyfiyyətlə aparılması və obyektin vaxtında istifadəyə verilməsi ilə bağlı tapşırıqlarını verdi.









# bir daha göstərdi ki, heç bir sosial layihə təxirə salınmayıb

## Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samux rayonuna səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ümummilli Lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Prezident İlham Əliyev indiyədək bir neçə dəfə Samuxda səfərdə olub. Bu səfərlər rayonun inkişafında mühüm rol oynayıb. 2003-cü ildən başlayaraq 2019-cu ilin sonuna qədər rayonda məhsul istehsalı 3,5 dəfə, sənaye 3,9 dəfə, kənd təsərrüfatı 2,6 dəfə, əsas kapitala yönəldilmiş vəsait isə 19,4 dəfə artıb. 2020-ci ilin birinci rübünədək 24787 yeni iş yeri açılıb, bu il ödənişli əsaslarla 305, pandemiya ilə əlaqədar isə 150 müvəqqəti iş yeri yaradılıb.

## Dövlət bütün fermerlərə dəstək göstərir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samuxdakı "Aqro Dairy" MMC-nin aqroparkının fəaliyyəti ilə tanış olub.





AZƏRTAC xəbər verir ki, sahəsi 5 min hektardan və ümumi dəyəri 65 milyon manatdan çox olan layihə çərçivəsində Qarasaqqal su kanalında nasos quraşdırılıb, 5,4 min kubmetrlik iki su anbarı, su hovuzları və saxlama anbarları tikilib. Aqroparkda istifadə olunması üçün 20 adda 91 ədəd texnika və aqreqat alınıb. 2019-cu ilin payızında 2 423 hektar sahədə buğda və 222 hektar sahədə arpa əkilib. Bu ilin yazında 74 hektar sahədə şəkər çuğunduru əkilib və taxıl biçini aparılan ərazilərdə qarğıdalı əkini nəzərdə tutulub.

"Aqro Dairy" MMC-nin icraçı direktoru Vahid Hacıyev dövlət başçısına aqroparkın fəaliyyəti barədə məlumat verdi.

**Vahid HACIYEV:** Samux rayonuna xoş gəlmisiniz. Sizi "Aqro Dairy" şirkətinin bütün kollektivi adından salamlayırıq. Sizin tapşırığınıza əsasən, ölkəmizdə taxılçılıq təsərrüfatının yaradılması istiqamətində görülən işlər çərçivəsində "Aqro Dairy" MMC Samuxda dövlət ehtiyat fondundan 5 min hektar, Tovuz rayonunda isə 12 min hektar ərazini uzunmüddətli icarəyə götürüb. Həmin ərazilərdə suvarılan sahələrimiz iki min hektardır.

**Prezident İlham ƏLİYEV:** Su xətləri çəkilib, su anbarından gəlir?

**Vahid HACIYEV:** Bəli, su xətləri çəkilib. Buradan 13 kilometr məsafədə su anbarı var. Suvarılmayan ərazilərimiz də mövcuddur. Hazırda həmin ərazilərin suvarılması üçün işlər görülür.

**Prezident İlham ƏLİYEV:** Burada əvvəllər heç bir əkin olmayıb?

**Vahid HACIYEV:** Xeyr, cənab Prezident, hətta torpaq çox yararsız idi, eroziyaya uğramışdı, çökəklikləri çox idi. Təbii ki, biz ildən-ilə bu torpaqları yaxşılaşdırdıq. Əlbəttə, təkrar əkin çox önəmli rol oynayır.

**Prezident İlham ƏLİYEV:** Təkrar əkini ilk dəfədir aparırsınız?

**Vahid HACIYEV:** Xeyr, biz hər il təkrar əkin aparırıq, qarğıdalı əkirik. Çox sağ olun ki, Siz həmişə bizə dəstək göstərirsiniz.

**Prezident İlham ƏLİYEV:** Bəli, vəsait də ayrılıb.

**Vahid HACIYEV:** Bu, bizim üçün həqiqətən çox vacibdir.

**Prezident İlham ƏLİYEV:** Deməli, hər şey etmək mümkündür. Sadəcə olaraq, düzgün yanaşma lazımdır, vəsait qoyulmalıdır. Dövlət və özəl sektor burada çiyin-çiyinə işləməlidir. Necə ki, bu təsərrüfatda bunu görürük. Bu il məhsuldarlıq nə qədər olacaq?

**Vahid HACIYEV:** Biz arpa biçinini başa çatdırmışıq, Samux rayonunda 222 hektarda biçin aparmışıq, hektardan 47-48 sentner məhsul götürmüşük.

**Prezident İlham ƏLİYEV:** Bu, yüksək göstəricidir.

**Vahid HACIYEV:** Tovuzda isə hektardan 62-67 sentner məhsul götürülüb, ancaq arpadan.

**Prezident İlham ƏLİYEV:** Bəs, buğda?

**Vahid HACIYEV:** Hazırda buğda biçini gedir. Biz Samuxda artıq 1500 hektar buğda zəmisi biçmişik, hektardan məhsuldarlıq orta hesabla 58 sentnerdir. Bəzi torpaqlarımız var, məhsuldarlıq 65-67 sentner olub.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. İri fermer təsərrüfatlarında daha çoxdur, amma ölkədə məhsuldarlıq hazırda buğdada 33 sentnerdir. Bu da yaxşı göstəricidir, keçən ilə nisbətən artıb, amma, əlbəttə, sizdə 58-60 sentnerə çatıbsa, bu, daha yaxşı göstəricidir.

**Vahid HACIYEV:** Bu, yalnız Samuxdakı göstəricimizdir. Tovuzda göstəricilərimiz orta hesabla 78 sentnerdir. Cənab Prezident, bizim pivot suvarma sistemi ilə təchiz olunmuş 70 hektar ərazimiz var. Bu 70 hektarın bəzi sahələrində hektardan məhsuldarlıq 84-85 sentnerdir.

**Prezident İlham ƏLİYEV:** Yəni, siz Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çıxmısınız.

**Vahid HACIYEV:** Bəli, əgər Avstriyada məhsuldarlıq hektardan orta hesabla 67 sentnerdirsə, Almaniyada 75 sentnerdir. Biz çalışırıq buna çataq.

**Prezident İlham ƏLİYEV:** Mən bilirəm ki, Avropada məhsuldarlıq nə qədərdir və bizdə də o qədər olmalıdır. Amma bunu etmək bir az çətindir. Çünki bizim iqlim fərqlidir. Torpaq da bəzi yerlərdə yararsızdır. Ona görə də bu torpaqlara siz həyat verirsiniz, canlandırırsınız.

**Vahid HACIYEV:** Cənab Prezident, biz bunu Sizin dəstəyiniz sayəsində əldə etmişik. Bu uğurlarda alınmış yeni texnikanın böyük rolu var.

**Prezident İlham ƏLİYEV:** Bunları siz almısınız, investisiyaları siz özünüz qoymusunuz. Burada özəl sektor bütün investisiyaları qoyub, dövlət də bütün başqa təsərrüfatlarda olduğu kimi, öz infrastruktur dəstəyini göstərir, yol, elektrik enerjisi, su. Bunları dövlət edir, qalanını da özəl sektor. Ona görə bütün bu kombaynları siz özünüz almısınız. Dövlət bütün fermerlərə dəstək göstərir, subsidiyalar verir, ancaq hər bir təsərrüfatda hektardan 78 sentner məhsul götürürlərmi? Yox. Ona görə də siz gərək bu təcrübəni bölüşəsiniz. Ola bilərmi ki, burada, ya da ki, Tovuz rayonunda regional tədris mərkəzi yaradılsın, Aqrar Universitet ilə birlikdə. Gəlsinlər, baxsınlar, təcrübə toplasınlar, hər yerdə belə olsun. Məncə, bu gün Azərbaycanda ən yüksək məhsuldarlıq buradadır.

**Vahid HACIYEV:** Cənab Prezident, biz özümüz də öyrənirik, biz istəyirik ki, məhsuldarlığı daha da artıraq. Qarğıdalı səpinində də istəyirik ki, ilin axırına qədər məhsuldarlığımızı artıraq və öz nəticələrimizi göstərək. Biz öz məhsuldarlığımızla hələ ki kifayətlənmirik.

Sonra Prezident İlham Əliyev burada çalışan xarici mütəxəssislərlə söhbət etdi. Xarici mütəxəssislər burada özlərini çox rahat hiss etdiklərini və yerli insanların onlara çox xoş münasibət göstərdiklərini məmnunluqla diqqətə çatdırdılar.

Daha sonra Prezident İlham Əliyev taxıl biçininə və qarğıdalı səpininə start verdi.

Qeyd edək ki, buğda, arpa, şəkər çuğunduru və qarğıdalı məhsullarının istehsal olunduğu aqroparkda xaricdən alınan müasir avadanlıq quraşdırılıb, 60 min tonluq taxıl anbarı kompleksi yaradılıb. Satış bazarı üçün ölkə daxili müəyyən edilib və burada 89 nəfər işlə təmin olunub.

## Samuxda məcburi köçkünlər üçün 9 yaşayış binası tikilir

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samux rayonunun ərazisində məcburi köçkün ailələri üçün inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olub.





AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Samux rayonunda 459 ailədən ibarət 1603 nəfər məskunlaşıb. Onların da böyük hissəsi Kəlbəcər rayonundan olan məcburi köçkünlərdi. İnşasına bu ildən başlanan və hazırda tikintisi davam edən kompleksə rayon ərazisində daha ağır şəraitdə yaşayan məcburi köçkün ailələri köçürüləcək. Kompleksə hər biri dördmərtəbəli olmaqla 9 yaşayış binası daxildir. Hər bir mənzilin tam təmirli vəziyyətdə məcburi köçkünlərə təhvil verilməsi nəzərdə tutulub. Hazırda ərazidə infrastrukturun qurulması ilə bağlı intensiv iş gedir. Buraya elektrik verilişinin təmin olunması, su təchizatının qurulması, qaz xətlərinin çəkilməsi daxildir.

Qeyd edək ki, dörd hektar sahəni əhatə edən yaşayış kompleksinə 144 şagird yerlik tam orta məktəb, 50 uşaq yerlik körpələr evi-uşaq bağçası, inzibati bina, tibb məntəqəsi və klub-icma mərkəzi daxildir. Ərazi tam abadlaşdırılacaq və yaşıllaşdırma işləri həyata keçiriləcək.

Xatırladaq ki, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən siyasət nəticəsində indiyədək 300 mindən çox insanın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət büdcəsinin və Dövlət Neft Fondunun vəsaitləri hesabına indiyədək ölkədə 100-dən çox qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış massivləri salınıb.

## Sloveniya Respublikasının Prezidenti zati-aliləri cənab Borut Pahora

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizi və dost Sloveniya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qarşılıqlı hörmətə və faydalı əməkdaşlığa əsaslanan Azərbaycan-Sloveniya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, ölkələrimizin mənafelərinə xidmət edən əlaqələrimiz birgə səylərimizlə bundan sonra da genişlənəcəkdir.

Bəşəriyyətin COVID-19-la mübarizə apardığı bir zamanda Azərbaycan xalqının dost Sloveniya xalqı ilə həmrəy olduğunu qeyd etmək istəyirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, ölkənizə daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2020-ci il*

## Gəncə şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.4-cü yarımbəndində göstərilmiş 5,0 (beş) milyon manat Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Gəncə şəhərində İdman Sarayının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində İdman Sarayının tikintisi işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Gəncə şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində 760 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Gəncə Dövlət Dram Teatrının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Dram Teatrının 500 yerlik yeni binasının tikintisinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.53.1-ci yarımbəndində göstərilmiş məbləğin 13,8 milyon (on üç milyon səkkiz yüz min) manatı Gəncə Şəhər İcra Hakimiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Gəncə şəhərində İdman Sarayının tikintisi işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində İdman Sarayının tikintisi işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.53.3-cü yarımbəndində göstərilmiş məbləğin 3,8 milyon (üç milyon səkkiz yüz min) manatı Gəncə Şəhər İcra Hakimiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Z.Ə.Səmədzadənin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və iqtisad elminin inkişafında xidmətlərinə görə Ziyad Əliabbas oğlu Səmədzadə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Paraqvay hökuməti və xalqı adından və şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan səmimi münasibətlər sülh və firavanlıq naminə gələcəkdə daha da güclənəcəkdir.

Fürsətdən istifadə edərək Azərbaycan xalqına və hökumətinə təbriklərimi, Zati-alinizə ən yüksək hörmət və ehtiramımı çatdırıram.

***Mario Abdo BENİTEZ,***
***Paraqvay Respublikasının Prezidenti***

# “Cənab Prezident, inanırıq ki, Sizin müdrik qərarlarınız sayəsində hər çətinlikdən alnıaçıq, üzüağ çıxacağıq”

**Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar dövlət başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər.**



AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.

Yardımlı rayonundan Milli Qəhrəman anası **Şəfiqə Almasova** yazır: “Möhtərəm cənab Prezident, Siz öz şərəfli fəaliyyətiniz, xalqımızın yolunda göstərdiyiniz misilsiz fədakarlığınızla artıq çoxdan sübut etmisiniz ki, hər bir azərbaycanlının Prezidentisiniz. Şəhid ailələrinə qayğı və diqqətinizi biz şəhid ailələri çox yüksək qiymətləndiririk. Mən Milli Qəhrəman anası kimi fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. Sizin tapşırığınızla mənim ailəmə hər cür qayğı göstərilir. Öz canını Vətən yolunda qurban vermiş şəhid ailələri adından Sizə cansağlığı, uzun ömür, gərgin fəaliyyətinizdə yeni böyük uğurlar arzulayıram”.

İkinci qrup əlil, özünüməşğulluq proqramına cəlb olunmuş sahibkar **Tərlan Kazımov:** “Hörmətli cənab Prezident, Sizin COVID-19 pandemiyasına qarşı mübarizəyə dair çıxışlarınız, gördüyünüz işlər, insanların sağlamlığını hər şeydən vacib bilməyiniz, tibb işçilərinin xidmətlərinə verdiyiniz yüksək qiymət hər bir azərbaycanlı kimi məni də sevindirir. Hazırda pandemiya ilə mübarizədə qazandığımız uğurların hamısı Sizin zəhmətiniz sayəsindədir. Vətəndaşların firavan yaşaması Sizin, eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əsas məqsədidir. Bizim də vətəndaşlıq borcumuz hər zaman Sizin və Mehriban xanımın yanında olmaq, vətənimizin gözəlləşməsi, özümüzün və ailəmizin sağlam qalması üçün əlimizdən gələni etməkdir. Sizə səmimi-qəlbdən təşəkkür edir, cansağlığı arzu edirəm”.

Laçın rayonundan məcburi köçkün **Nüsrət Alməmmədov:** “Əziz Prezidentimiz, Siz məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün mühüm işlər görmüsünüz. Respublikamızın müxtəlif şəhər və rayonlarında salınan yaşayış kompleksləri, müasir qəsəbələr, tikilən çoxmənzilli binalar bunun əyani sübutudur.

Bu yaşayış komplekslərinin, qəsəbələrin açılış mərasimlərində Sizin şəxsən iştirak etməyiniz, yeni mənzillərə köçən insanlara xeyir-dua verməyiniz bizim üçün çox dəyərlidir. Bizim ailə Laçın rayonundan məcburi köçkün düşdükdən sonra Ağcabədiyə pənah gətirmişdir. O vaxtdan çətin şəraitdə yaşayırdıq. “Taxtakörpü” adlanan ərazidə yeni salınmış 144 mənzilli qəsəbədə bizim ailəyə də hər bir şəraiti olan mənzil verilmişdir. Cənab Prezident, mənzillə təmin olunduğumuz üçün ailəmin adından Sizə minnətdarlığımı bildirirəm. Allah köməyiniz olsun!”

Bakının Qaradağ rayonunun Ümid qəsəbəsindən **Gülxar Allahverdiyeva** Laçın rayonundan olan məcburi köçkünlər adından dövlət başçısına minnətdarlıq edərək yazır: “Xalqımızın hörmətli və sevimli Prezidenti, bəzən hər birimizin həyatında yaranmış böhrandan çıxmaq üçün kənar yardımlara ehtiyac duyduğumuz anlar olur. Elə bu son aylar ərzində, çətin tarixi zamanda nələr yaşadığımız məlum məsələdir. İnsanlara qənim kəsilən pandemiya şəraitində Sizin bütün zamanlar üçün öz dəyərini saxlayacaq yüksək insani münasibətiniz, COVID-19 infeksiyasına qarşı müvafiq tədbirləriniz və eləcə də “Evdə qal!”, “Biz birlikdə güclüyük!” çağırışlarınız Sizə olan inamımızı daha da möhkəmləndirdi. Gördük və əmin olduq ki, dövlətimizin və dövlət başçısının vətəndaşlara olan qayğısı, əhalinin sağlamlığı yolunda aparılan işlərə nəzarəti hər zaman yerindədir və tükənməzdir. Hörmətli cənab Prezident, biz bu gün vətəndaş-dövlət münasibətlərində sıx birliyin şahidi oluruq. Dövlətimizin gücünü, nüfuzunu artırdığınıza, xalqımıza, eləcə də məcburi köçkünlərə göstərdiyiniz qayğıkeş münasibətə görə Sizə dərin təşəkkürümüzü bildirir, işlərinizdə uğurlar arzulayırıq. Biz Sizinlə güclüyük!”

Saatlı rayonunun sakini **Pünhan Quliyevin** məktubunda deyilir: “Hörmətli cənab Prezident, Sizin apardığınız uğurlu daxili və xarici siyasət sayəsində Azərbaycan biz gənclərin gözü önündə yüksək səviyyədə inkişaf etmişdir. Dövlətimiz Sizin siyasi iradəniz və qabaqcıl səyləriniz nəticəsində COVID-19 pandemiyası şəraitində beynəlxalq aləmdə həmrəyliyin və əməkdaşlığın tərəfdarı olduğunu bir daha nümayiş etdirdi. Biz gənclər bu gün hər bir şəraiti, əmin-amanlıq olan dövlətdə yaşayır, heç bir qlobal və beynəlxalq problemi düşünmədən çalışırıq. Çünki bizim Sizin kimi uzaqgörən, müdrik Prezidentimiz var. Möhtərəm cənab Prezident, bundan sonra apardığınız düşünülmüş və məqsədyönlü fəaliyyətinizdə Sizə yeni uğurlar arzulayıram”.

Bakının Səbail rayonundan **Əbülfəs Qasımov:** “Əziz Prezidentimiz, koronavirusun dünyanı çənginə aldığı dövrdə ölkəmizdə bu bəlaya qarşı gördüyünüz qabaqlayıcı tədbirlərə görə Sizə minnətdarlıq edirəm. Hörmətli cənab Prezident, ölkəmizin gələcəyi naminə gördüyünüz bütün tədbirlərə görə Sizə və Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Tanrı Sizi qorusun!”

Mingəçevir şəhərindən **Cəfər Quliyev, Sahib Rəsulov, Həsən Mikayılov, Mehriban Süleymanova** və **Baloğlan Alıyev** yazırlar: “Çox hörmətli cənab Prezidentimiz, Biz, Mingəçevir şəhəri “İncilli” adlanan yaşayış massivinin sakinləri Sizə və Mehriban xanıma dərin təşəkkür edirik. Uzun illərdən bəri yolumuzun yararsız vəziyyətdə olması bizə çox çətinliklər yaradırdı. Yayda toz-torpaqdan, payız və qış aylarında isə palçıqdan əziyyət çəkirdik. Özümüzün işə, uşaqlarımızın da məktəbə gedib-gəlməsində problem yaranırdı. Bir neçə gün əvvəl bu yolda təmir işlərinə başlanılması sakinləri hədsiz sevindirib. Eyni zamanda qeyd etməyi özümüzə borc bilirik ki, Mingəçevirin sanki bir rəmzi olan “Azərbaycan” İstilik Elektrik Stansiyasının Sizin tapşırığınızla yenidənqurma işləri sayəsində bu günün standartlarına cavab verən bir müəssisəyə çevrildiyinin şahidiyik. Bir sözlə, şəhərimiz inkişaf edir, insanların güzəranı daha da yaxşılaşır. Hörmətli Prezidentimiz, stansiyada görülən işlər, yolumuzun əsaslı təmiri üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizə və Mehriban xanıma uzun ömür, cansağlığı versin!”

Cəlilabad rayonunun Təzəkənd, Söyüdlü və Muğan kəndlərinin sakinləri adından **Mirəziz Salayev, Elməddin Nuralıyev, Azad Adıgözəlov** və **Rasif Sadiqov** yazırlar: “Hörmətli cənab Prezident, pandemiya dövründə vətəndaşlara, eləcə də sahibkarlara və fermerlərə yaratdığınız şəraitə və verdiyiniz dəstəyə görə Sizə öz adımızdan, Cəlilabad rayonunun Təzəkənd, Söyüdlü və Muğan kəndlərinin sakinləri adından minnətdarlığımızı bildiririk. Kənd sakinləri olaraq, Sizin yürütdüyünüz siyasətin müsbət nəticələrini, qayğınızı və dəstəyinizi daim öz üzərimizdə hiss edirik. Dünyanın bir çox ölkələri ilə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və tələfat səviyyəsinin aşağı olması Sizin gərgin əməyinizin nəticəsidir. Kənd sakinləri bu çətin dövrdə yaradılmış şəraitdən bəhrələnərək əkib-becərdikləri kartofu həm daxili, həm də xarici bazarlara çıxara bilmişlər. Bu, bizim üçün çox şey deməkdir. Dualarımız və minnətdarlığımız daim Sizinlədir, cənab Prezident”.

Qəbələ şəhərindən **Şirin Muştakov:** “Hörmətli cənab Prezident, pandemiya dövründə Sizin tibb işçilərinə göstərdiyiniz diqqət və qayğını hiss edirik. Məni 17 İyun Tibb İşçilərinin Peşə Bayramı münasibətilə səhiyyə sahəsində xidmətlərimə görə “Tərəqqi” medalı ilə təltif etmisiniz. Buna görə Sizə dərin hörmət və minnətdarlığımı bildirirəm. Uca Allah Sizi qorusun!”.

Masallı rayonundan **Cəlil Nəzərov:** “Hörmətli cənab Prezident, mənə “Əməkdar həkim” fəxri adı verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu təkcə mənə yox, bütün Azərbaycan və Masallı səhiyyəsinə verilən qiymətdir. Söz verirəm ki, gələcəkdə də Azərbaycan xalqına və Sizə sədaqətlə xidmət edəcəyəm”.

Salyan rayonunun Çuxanlı kəndindən **Natiq Mirzəyev, Muzadil İbrahimov, Rəşad Kərimov, Seymur Hüseyinov** və **Samir Məlikov** yazırlar: “Çox hörmətli cənab Prezident, Sizin yüksək dünyagörüşünüzə, sağlam düşüncənizə, ciddi nəzəri və praktiki təhlil qabiliyyətinizə, böyük siyasi təcrübənizə, dərin təfəkkürünüzə əsaslanan qərarlarınız, xalqımızın sağlamlığının qorunması, təhlükəsizliyinin təmin olunması istiqamətində atdığınız addımlar, qabaqlayıcı və təxirəsalınmaz tədbirlər öz nəticəsini verməkdədir. Ümumbəşəri bəla olan koronavirus pandemiyası ilə mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin belə aciz qaldığı vəziyyətdən minimum zərərlə çıxmağımızı, son dövrlərdə ölkəmizdə zəruri tibbi vasitələr, avadanlıq və ləvazimatlar ilə təminatın yaxşılaşdırılması, ən müasir tələblərə cavab verən səhiyyə ocaqlarının istifadəyə verilməsi, xaricdə çalışan həkimlərimizin ölkəmizdə gedən proseslərə cəlb edilmələri, xalqın rifahı naminə göstərdiyiniz diqqət və qayğı ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Cənab Prezident, bu çətin dövrdə ölkəmizdə yenidənqurma və abadlıq işlərinin davam etdirilməsi də təqdirəlayiqdir. Bunun təzahürünü öz kəndimizdə də görürük. Kəndimizdə suvarma ilə bağlı heç bir problem yoxdur. Bu da əhalinin əkin-biçin işləri ilə məşğul olmasında ruh yüksəkliyi yaradır. Biz kəndlilərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirik”.

Mingəçevir şəhərindən **Mehman Süleymanov, Calal Kərimov, Urfan Rüstəmov** və **Rövşən Səlimov** yazırlar: “Möhtərəm cənab Prezident, biz Mingəçevir şəhərində “Tərəvəzçilik sovxozu” adlanan ərazidə yaşayırıq. Yaşayış vəziyyətimizin yaxşılaşdırılması üçün Sizə müraciət etmişdik. Həmin müraciətdən sonra təbii qaz, içməli su və elektrik enerjisi ilə təminatımız normal vəziyyətə gətirilmiş, yolumuzun bir hissəsi asfaltlanmışdır. Burada yaşayan insanlar görülən işlərdən razı qalmışlar. Odur ki, göstərilən köməyə görə bütün sakinlər adından Sizə öz təşəkkürümüzü bildiririk. Sizə və ailənizə ömürboyu firavan və qayğısız həyat arzulayırıq”.

Füzuli rayonundan **Paşa Əhmədov:** “Hörmətli cənab Prezident, Sizin bu çətin günlərdə vaxtında və düzgün qəbul etdiyiniz qərarlar biz vətəndaşların sağlamlığı üçündür. Siz hər zaman öz vətəndaşınızın sağlamlığını və yaxşı yaşamasını düşünürsünüz. İnanıram ki, biz Sizin müdrik qərarlarınız sayəsində hər bir çətinlikdən alnıaçıq, üzüağ çıxacağıq. Mən bütün xalqımız adından Sizə işlərinizdə yeni uğurlar arzulayıram. Siz bizim güclü liderimizsiniz. Biz Sizinləyik. Tanrı Sizi və ailənizi qorusun!”.

Ağcabədi rayonunun Pərioğlular kəndindən **Mübariz Bünyatov:** “Hörmətli cənab Prezidentimiz, öncə respublikamızın inkişafı, dünyada nüfuzunun artması, sayılıb-seçilməsi istiqamətində apardığınız işlərə, aztəminatlı ailələrə göstərdiyiniz diqqət və qayğıya, müharibə veteranlarına və şəhid ailələrinə, həmçinin bütün xalqımıza göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Hazırkı ağır dövrdə ölkəmizin inkişafına əngəl yaradan mənfi hallara, korrupsiya və rüşvətxorluğa qarşı apardığınız amansız mübarizə bütün xalqımız kimi, məni də, bizim ailəmizi də sevindirir, qürurlandırır. Biz Sizinlə fəxr edirik. Fəxr edirik ki, bizim belə humanist, qayğıkeş və mübariz Prezidentimiz var. Biz ağcabədililər Ulu Öndərimiz Heydər Əliyevin də siyasi xəttini həmişə bəyənib dəstəkləmişik. Hazırda Sizin Ulu Öndərin siyasətini uğurla davam etdirməyiniz qəlbimizi sevinc hissi ilə doldurur. Biz Sizinlə fəxr edirik. Yaxşı ki, varsınız, yaxşı ki, bizim Prezidentimizsiniz. Allahdan Sizə cansağlığı, ailə səadəti və işlərinizdə daha böyük müvəffəqiyyətlər arzulayırıq”.

Şirvan şəhərindən **İmanverdi İsrafilov:** “Hörmətli cənab Prezident, Sizin üçün insanların sağlamlığı həmişə birinci yerdədir. Təsadüfi deyil ki, ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus Sizə ünvanladığı məktubda Azərbaycan hökumətinin COVID-19-a qarşı mübarizəsini yüksək qiymətləndirib, Sizin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyinizi nümunəvi adlandırıb. Cənab Prezident, Vətənimizin daha gözəl və qüdrətli olması, insanlarımızın daha xoşbəxt və firavan yaşaması Sizin və Azərbaycanın Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın gərgin və yorulmaz birgə fəaliyyətinizin əsas məqsədidir. Son illərdə Azərbaycan dövləti Sizin düşünülmüş siyasətiniz və müdrik rəhbərliyiniz sayəsində Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq davamlı inkişaf edir. Əminik ki, bu gün yaşadığımız bu mürəkkəb dövr tezliklə sona çatacaq, Vətənimiz yenə də Sizin rəhbərliyinizlə hər sahədə durmadan irəliləyəcək. Sizin “Biz birlikdə güclüyük!” çağırışınız bu gün dillər əzbəridir. Biz isə deyirik: “Biz Sizinlə güclüyük, möhtərəm Prezident”. Sizə xoşbəxtlik, gördüyünüz hər işdə böyük uğurlar və yeni-yeni qələbələr arzulayırıq”.

Salyan rayonunun Xələc kəndinin sakinləri adından **Əlivahid Məmmədov, Təyyar Qasımov, Namik Əlizadə, Dünyamalı Canəliyev** və **Əzizağa İbrahimov** yazırlar: “Əziz Prezidentimiz, ölkəmizdə gedən iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Kənd təsərrüfatı sahəsinin dirçəldilməsi ölkənin sosial-iqtisadi inkişafına, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. İndi fermerlər əkin-biçinə daha həvəsli görünürlər. Dövlətin qayğısı sayəsində suvarma suyu təminatı ildən-ilə yaxşılaşır, texnikalar alınır, subsidiyalar ayrılır, gübrələr güzəştli şərtlərlə verilir. Qeyd etmək istəyirik ki, Salyan rayonunun Xələc kəndində üzüm, bostan, tərəvəz, kartof, pambıq, taxıl məhsulları əkilib-becərilir. Məhsuldarlığı da ildən-ilə yüksəltməyə çalışırıq. Cənab Prezident, aqrar sahənin inkişafına verdiyiniz dəstəyə, həmçinin rayonumuzda gedən abadlıq-quruculuq işlərinə görə Sizə minnətdarlığımızı bildiririk. Allah Sizi, ailənizi və xalqımızı qorusun!”

Siyəzən şəhərindən **Tamerlan Qurbanov:** “Hörmətli cənab Prezident, “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında imzaladığınız sərəncam Siyəzən rayon ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilir. Bir təhsil işçisi, coğrafiya müəllimi kimi hesab edirəm ki, imzaladığınız bu sərəncam rayonumuzda həm turizmin coğrafiyasını genişləndirəcək, həm də ölkə iqtisadiyyatına öz töhfəsini verəcəkdir. 2015-ci ildə Sizin iştirakınızla açılışı olan “Qalaaltı Hotel & SPA” müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından nə qədər mühüm əhəmiyyət daşıdığı və regionumuza gələn turistlərin sayının dəfələrlə artmasına göstərdiyi təsir göz qabağındadır. Əminəm ki, bu sərəncamın nəticəsi də regionumuzun inkişafına olduqca müsbət təsir göstərəcəkdir. İstər tarixi, istərsə də coğrafi baxımdan mühüm əhəmiyyət kəsb edən “Beşbarmaq dağı” Tarix-Mədəniyyət və Təbiət Qoruğunda aparılacaq işlərə uğurlar arzu edir, bir Siyəzən rayon sakini olaraq Sizə dərin minnətdarlığımı bildirirəm. Yaşasın inamla uğurlara imza atan müstəqil Azərbaycan!”

Balakən rayonunun Tülü kəndindən **Taleh Namazov, Elşən Qurbanov, Elmira İsmayılova, Sabir Nəbiyev, Sərxan Yetərov, Gülbəniz Rəşidova, Lətif Alqayev, Mömінət Alagözova, Zamirə Məmmədova, Xəlil Yetərov, Almaz Layıcov, Elmira Yetimova, Şəfiqə Qarayeva, İntizar Namazova, Simuzər Atayeva, Sanur Alqayeva, Zərifə Atayeva, Türkan Hüseynova, Məhəmməd Sabirov, Hicran Atayev** və **Sevil Puçaxova** yazırlar: “Hörmətli cənab Prezident, son aylarda dünyada COVID-19 pandemiyasının yayıldığı bir dövrdə Azərbaycanda da çətin günlər yaşanır. Dövlətimiz Sizin rəhbərliyiniz sayəsində əhalinin sağlamlığının çox ciddi və mütəşəkkil şəkildə qorunması üçün mübarizə aparır. Sizin sərəncamınız əsasında Balakən rayonundakı Qullar, Tülü və Talalar kəndlərindən keçən yolların asfaltlanması hər üç kəndin sakinlərinin böyük sevincinə və bayram əhvali-ruhiyyəsinin yaşanmasına səbəb oldu. Hörmətli cənab Prezident, Siz həmişə xalqımızın çətin və dar günlərində bizim yanımızda olaraq bizə dayaq olmusunuz. Dövlətimizin bu çətin günündə Tülü kəndinin sakinləri üçün belə gözəl şərait yaratdığınıza görə kənd sakinləri adından Sizə dərin minnətdarlığımızı bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı, bərəkətli və xoşbəxt ömür arzulayırıq. Allah Sizin kölgənizi dövlətimizin üzərindən əskik etməsin. Sizin varlığınız dövlətimizin daha da inkişafı, Dağlıq Qarabağımızın işğaldan azad olunması, xalqımızın daha firavan və xoşbəxt yaşaması deməkdir. Biz, Tülü kənd sakinləri həmişə dövlətimizin və Sizin uğurlu siyasətinizi dəstəkləyirik, hər zaman Siza arxalanırıq. Allah Sizi və ailənizi qorusun!”

Ağdam rayonunun Təzəkənd kəndindən **Şövkət Əmirova:** “Hörmətli və əziz Prezidentimiz, biz Sizinlə qürur duyuruq. Siz Ulu Öndərin başladığı bütün işləri uğurla davam etdirir, Azərbaycanımızın inkişafı üçün yorulmadan çalışırsınız. Sizin tapşırığınız əsasında bugünlərdə kənd yolumuza asfalt örtük salınmışdır. Yollarımız təmir olunan zaman plana uyğun olaraq yolumuz bir az da genişləndirilmiş, həmçinin yol kənarında səliqəsiz hasarlar söküləb yenidən çəkilmişdir. Mənim də hasarımın bir hissəsi yola yaxın düşdüyü üçün sökülmüşdü. Yolun çəkilişindən sonra qısa müddət ərzində həyətimin hasarı hörülərək mənə təhvil verildi. Hazırda geniş, rahat yolumuz və səliqəli hasarlarımız var. Buna görə Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm”.

# “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” və “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051; 2017, № 3, maddə 345; 2019, № 12, maddə 1881) 13-2.1-ci maddəsinin ikinci cümləsində “fəaliyyətini” sözündən sonra “, o cümlədən dövlət dili normalarına riayət edilməsini” sözləri əlavə edilsin.

**Maddə 2.** “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82, № 11, maddələr 1258, 1292; 2016, № 1, maddə 40, № 5, maddə 837, № 12, maddə 1986; 2017, № 12 (I kitab), maddə 2254; 2018, № 1, maddə 16, № 5, maddə 891, № 6, maddə 1166; 2019, № 3, maddə 376; 2019, № 12, maddə 1882) 6-cı maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Kütləvi informasiya vasitələrində dövlət dili normalarına riayət edilməlidir.”.

**Maddə 3.** “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 583; 2004, № 1, maddə 10; 2005, № 4, maddə 278, № 6, maddə 469; 2006, № 11, maddə 932, № 12, maddə 1005; 2007, № 6, maddə 560, № 8, maddə 749, № 11, maddə 1053; 2009, № 6, maddə 394; 2010, № 7, maddə 600; 2011, № 2, maddə 70; 2015, № 4, maddə 354; 2016, № 12, maddə 1987; 2018, № 2, maddə 153, № 6, maddə 1167, № 12 (I kitab), maddə 2477; 2019, № 12, maddə 1882) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 32.0.6-cı maddədə “edilməlidir” sözü “olunmalı və dövlət dili normalarına riayət edilməlidir” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 32-1-ci maddə əlavə edilsin:

“Maddə 32-1. Teleradio yayımında dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilmənin təmin olunması

Teleradio yayımı sahəsində dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilmənin təmin olunması ilə bağlı qaydaları müvafiq dövlət orqanı müəyyənləşdirir.”;

3.3. aşağıdakı məzmunda 35.1-1-ci maddə əlavə edilsin:

“35.1-1. Reklamda “Dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına riayət edilməlidir.”;

3.4. aşağıdakı məzmunda 40.2.5-1-ci maddə əlavə edilsin:

“40.2.5-1. proqramlarda (verilişlərdə) dövlət dilindən istifadəni və dövlət dili normalarına riayət edilməni təmin etmək;”.

**Maddə 4.** “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 2, № 8, maddə 415; 2004, № 8, maddə 598; 2007, № 11, maddə 1053; 2011, № 6, maddə 483; 2017, № 1, maddə 5; 2019, № 2, maddə 180, № 4, maddə 578) 13.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

“13.1. Dövlət dilinin normaları özündə Azərbaycan ədəbi dilinin orfoqrafiya və orfoepiya normalarını ehtiva edir. Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir. Hüquqi, fiziki və vəzifəli şəxslər bu normalara əməl etməlidirlər.”.

**Maddə 5.** “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 888; 2006, № 3, maddə 224, № 12, maddə 1005; 2007, № 5, maddələr 435, 442, № 12, maddə 1218; 2009, № 10, maddə 772; 2011, № 2, maddə 70; 2012, № 9, maddə 839; 2015, № 5, maddə 493, № 11, maddə 1281; 2016, № 12, maddə 1988; 2018, № 6, maddə 1170, № 12 (I kitab), maddə 2478; 2019, № 4, maddə 599, № 12, maddə 1882) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 7.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.1.12-ci maddə əlavə edilsin:

“7.1.12. proqramlarda (verilişlərdə) dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilməsinin təmin olunması.”;

5.2. aşağıdakı məzmunda 12.4-cü maddə əlavə edilsin:

“12.4. İctimai yayım proqramlarında dövlət dili normalarına riayət edilməlidir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

# “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” və “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 93-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli, “Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2003-cü il 2 yanvar tarixli 835 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” və “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 93-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 590; 2005, № 2, maddə 69; 2006, № 11, maddə 947; 2008, № 9, maddə 798; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 9, maddə 995; 2016, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 12 (I kitab), maddə 2542; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1014 nömrəli Fərmanı) 6-cı hissəsinin 4-cü abzasına “30.3-cü,” sözlərindən sonra “32-1-ci,” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 591; 2005, № 3, maddə 173, № 4, maddə 295; 2008, № 10, maddə 888; 2009, № 2, maddə 78; 2010, № 3, maddə 189; 2011, № 2, maddə 79; 2015, № 2, maddə 118, № 9, maddə 993; 2018, № 5, maddə 949; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1014 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Milli Televiziya və Radio Şurası haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 8.14-1-ci bənd əlavə edilsin:

“8.14-1. teleradio yayımı sahəsində dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilmənin təmin olunması ilə bağlı qaydalar müəyyən edir;”.

3. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 835 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 27; 2004, № 5, maddə 344; 2017, № 1, maddə 55, № 4, maddə 556; 2019, № 4, maddə 611) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddən “, 13.1-ci” sözləri çıxarılsın;

3.2. 2.2-ci bəndə “cümləsində” sözündən sonra “və 13.1-ci maddəsinin ikinci cümləsində” sözləri əlavə edilsin;

3.3. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

“2.4. həmin Qanunun 13.1-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası ilə razılaşdırmaqla) nəzərdə tutulur.”.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2020-ci il*

# *Milli Məclis Sədrinin müavini:* “Azərbaycan Ordusu Qafqazın ən güclü ordusudur”

“Ordu hər bir dövlətin və xalqın təhlükəsizliyinin qarantıdır. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan korpusunun yarandığı gün - 26 İyun Silahlı Qüvvələr Günü elan olunub. Hər bir dövlətin müqəddəratı ordusundan asılıdır.

Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Ordusu işğalçı Ermənistanın dərsini vermək iqtidarındadır. Bunu 2016-cı ilin 4 günlük Aprel savaşı da göstərdi. Əhalisi 3 milyondan az olan Ermənistan 4 günlük savaşda 560 hərbçisini itirdi. Bu kiçik Ermənistan üçün əsl fəlakət sayıla bilər. Təsadüfi deyil ki, Aprel savaşından sonra Ermənistan ordusunda generallar arasında həbslər həyata keçirildi, Müdafiə naziri istefaya göndərildi”.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev qeyd edib ki, MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələr sırasındadır. Azərbaycanın hərbi büdcəsi Ermənistan büdcəsinin tamamından çoxdur. Bu da düşmən ölkəni çox qorxudur. Müdafiə naziri Zakir Həsənov son müsahibəsində açıq dedi ki, növbəti müharibədə Ermənistan ordusunun itkiləri daha çox olacaq. İşğalçı dövlətin ordusu məğlubiyyətə düçardır. Bu gün Azərbaycan Silahlı Qüvvələri NATO ilə əməkdaşlıq edir. Azərbaycan hərbçiləri NATO-nun “Sülh Naminə Tərəfdaşlıq” proqramı çərçivəsində təşkil olunan müxtəlif təlimlərdə iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri “Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı” çərçivəsində inkişaf edir. Bundan başqa, Azərbaycanla Türkiyə arasında strateji müttəfiqlik hərbi sahəyə də sirayət edib. İl ərzində qardaş dövlətlə birgə keçirilən hərbi təlimlər də buna sübutdur.



“Ordumuz qarşısına qoyulan istənilən tapşırığı yüksək peşəkarlıqla yerinə yetirmək iqtidarına malikdir. Prezident İlham Əliyevin göstərdiyi qayğı nəticəsində vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Müasir dünyamızda baş verənlər onu təsdiqləyir ki, güclü ordusu olmayan dövlətlər müstəqil siyasət həyata keçirməkdə çətinlik çəkirlər. Ordusu zəif olan dövlətlərə təsir etmək daha asandır. Bütün diplomatik danışıqların arxasında güclü ordu dayanır”, - deyə Sədr müavini vurğulayıb.

O qeyd edib ki, bu gün gənclərimiz böyük həvəslə hərbi xidmətə can atırlar. 2016-cı ilin savaş günlərində minlərlə gəncimiz orduya yazılmağa və düşmənlə döyüşməyə can atırdı. Ermənistan gəncləri isə işğal altındakı torpaqlarımızda zorla qulluq etməmək üçün ölkələrini tərk edirlər. Bunun özü iki ölkənin gəncləri arasındakı fərqi ortaya qoyur.

A.Əliyev deyib: “Azərbaycan Ordusu Qafqazın ən güclü ordusudur. Düşmənin bütün təxribatlarının qarşısı yerindəcə alınır. Ordumuz daim düşməni vahimə içərisində saxlayır. İstənilən zaman ordumuz torpaqlarımızı azad etməyə qadirdir. Bunu cənab Prezident dəfələrlə çıxışında bəyan edib. Düşmən dərk edir ki, onların qarşısında 1990-cı illərdə olan özünümüdafiə dəstələri yox, nizami və müasir silahlarla təmin edilmiş Azərbaycan Ordusu dayanır”.

# Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin onlayn iclası keçirilib

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin növbəti onlayn iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli gündəliyə birinci oxunuşda 3 məsələ daxil edildiyini söyləyib və həmin qanun layihələrinin parlamentə bir zərfdə təqdim olunduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanuna təklif edilən dəyişikliklər rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədini daşıyır. Həmçinin “Elektron imza və elektron sənəd haqqında” qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılmasını nəzərdə tutur. Bunlarla əlaqədar yeni layihədə qanunun 9-cu maddəsinə 9.2-3-cü və 9.2-4-cü maddələr əlavə olunur.

Komitə sədri vurğulayıb ki, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanunda bu dəyişikliklərin edilməsi “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” qanuna da müvafiq dəyişikliklər edilməsi zərurətini yaradır. Beləliklə, qanunvericiliyin uyğunlaşdırılması baxımından “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” qanuna 16.2-1, 16.2-2 və 24-3-cü maddələr əlavə olunur. Həmin maddələr təsis sənədləri ilə bağlı qeydiyyat və digər müraciətlərin (qrant müqavilələri, ianələr üzrə məlumatların təqdim edilməsi və s.) elektron qaydada aparılmasının mümkünlüyünü müəyyənləşdirir, habelə dövlət qeydiyyatının gücləndirilmiş elektron imzadan istifadə etməklə elektron məlumat sistemi vasitəsilə aparılmasını nəzərdə tutur.

Onlayn iclasda gündəlikdəki 3-cü məsələni şərh edən vitse-spiker Fəzail İbrahimli bildirib ki, “Qrant haqqında” qanunda edilən dəyişiklik də uyğunlaşdırma xarakteri daşıyır, QHT-lərin bağladığı qrant müqavilələrinin qeydə alınmasının elektron məlumat sistemi vasitəsilə həyata keçirilməsi üçün hüquqi əsaslar yaradır.

Sonra onlayn iclasda müzakirələr aparılıb. Komitə üzvləri Azər Badamov, Sevinc Fətəliyeva, Malik Həsənov, Anar İsgəndərov, Ceyhun Məmmədov və Cavanşir Paşazadə rəy və təkliflərini bildiriblər.

Yekunda gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycanın Baş prokuroru Almaniyanın ölkəmizdəki səfiri ilə görüşüb

**İyunun 24-də Baş prokuror Kamran Əliyev Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq ilə görüşüb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Kamran Əliyev ölkələrimiz arasında dərin tarixi köklərə malik münasibətlərin inkişafından söhbət açıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları barədə ətraflı məlumat verib.

Kamran Əliyev dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışaraq, cinayətkarlıqla, xüsusən də korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla, habelə Avropa ölkələrinin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Həmçinin prokurorluq əməkdaşlarının ümumi peşə hazırlığının artırılması və təcrübə mübadiləsinin aparılması məqsədilə tərəfdaş ölkələrin, o cümlədən Almaniyanın dövlət qurumları və təhsil müəssisələri ilə ikitərəfli əlaqələrin inkişafına böyük önəm verildiyi qeyd olunub.

Səfir Volfqanq Maniq ölkəmizdə görülən işləri, aparılan məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirib, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yaranmış yeni idarələrin fəaliyyət istiqamətləri, habelə prokurorluq orqanlarına qəbul proseduru, gənc prokurorluq əməkdaşlarının peşə hazırlığı səviyyələrinin artırılması məsələləri ilə dərindən maraqlanıb. O, xalqlarımız və ölkələrimizin mənafeləri, ikitərəfli münasibətlərin inkişafı naminə, habelə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq orqanları ilə əməkdaşlıq istiqamətində münasibətlərin inkişaf edəcəyinə səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumat verilib, bir sıra digər məsələlər müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb.

# Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Moskvada hərbi parad keçirilib





**Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə iyunun 24-də Moskvada hərbi parad keçirilib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Putin fəxri qonaqlar və veteranlarla birlikdə paradı izləyib.

Tədbirdə Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Rusiyanın Müdafiə naziri Sergey Şoyqunun dəvəti ilə qonaq qismində iştirak edib.

Azərbaycan Ordusunun 75 hərbçisindən ibarət parad heyəti hərbi marşla tribunaların önündən keçib. Paradın aparıcısı xatırladıb ki, Böyük Vətən müharibəsi cəbhələrində 600 mindən çox azərbaycanlı döyüşüb.

Hərbi paradda 14 minə yaxın hərbçi, o cümlədən Rusiya, Azərbaycan, Belarus, Hindistan, Qazaxıstan, Qırğızıstan, Çin, Moldova, Monqolustan, Serbiya, Tacikistan, Türkmənistan, Özbəkistan hərbi qulluqçuları iştirak ediblər. Hərbi paradın fəxri qonaqları arasında Belarus Prezidenti Aleksandr Lukaşenko, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Moldova Prezidenti İqor Dodon, Serbiya Prezidenti Aleksandr Vuçiç, Tacikistan Prezidenti Emomali Rahmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xarici ölkələrin Moskvadakı səfirləri, beynəlxalq təşkilatların rəhbərləri və başqaları yer alıblar.

Qızıl meydanın üzərindən 75 təyyarə və helikopter uçub, 200 müasir və müharibə dövrünə aid 18 hərbi texnika tribunalar önündən keçib.

Sonra Rusiya Prezidenti Vladimir Putin və paradın fəxri qonaqları birlikdə Kremlin divarları yaxınlığında Naməlum əsgərin məzarı önünə əklil qoyublar.

Xatırladaq ki, Qələbə paradı koronavirus pandemiyasına görə mayın 9-dan iyunun 24-nə keçirilib. 1945-ci ildə Böyük Vətən müharibəsində Qələbədən sonra Qızıl meydanda məşhur parad da iyunun 24-də keçirilmişdi.

Mayın 9-na nəzərdə tutulmuş parada bir çox ölkələrin liderləri dəvət almışdılar. Tədbirdə iştirakı təsdiqlənmiş bir çox digər dövlət və hökumət başçıları koronavirus pandemiyası ilə əlaqədar Moskvaya səfərlərini təxirə salmalı olublar.

Qələbə bayramı münasibətilə Rusiya paytaxtında atəşfəşanlıq olub.

# Ölkələrin koronavirusdan xilası: karantin rejimi yenidən sərtləşdirilir

*Əvvəli 1-ci səh.*

Bu da ölkələri karantin rejimi qaydalarını yenidən sərtləşdirməyə məcbur edir.

## Virusun ikinci dalğası birincidən daha ağır ola bilər

Venesuela Prezidenti Nikolas Maduro ölkədə yoluxma hallarının sayının 4000-i aşmasından sonra koronavirus infeksiyasının “təhlükəli həddə çatması” haqqında bəyanat verib. Prezident koronavirusun bu qədər geniş yayılmasını venesuelalıların qonşu Kolumbiya və Braziliyadan qayıtması ilə əlaqələndirib. Belə ki, koronavirus pandemiyası başlanandan bəri 70 mindən çox venesuelalı öz ölkəsinə qayıdıb. Buna görə N.Maduro əhalini COVID-19-la mübarizə üçün karantinə riayət etməyə çağırıb.

İyunun 22-dən Venesuela yeni tipli koronavirusun yayılmasına qarşı mübarizə məqsədilə ölkənin 24 ştatından 10-da, o cümlədən paytaxt Karakasın ən böyük dairəsi olan Libertador bələdiyyəsində tətbiq edilmiş karantin rejimini gücləndirib. Supermarketlər, apteklər gündə cəmi bir neçə saat işləyir. Ölkədə daxili və beynəlxalq nəqliyyat əlaqəsi məhdudlaşdırılıb.

Fransada COVID-19 pandemiyası ilə əlaqədar yaradılmış 13 ekspertdən ibarət Elmi Şura koronavirusun yayılmasının intensivləşəcəyi ehtimalını irəli sürüb, infeksiyanın ölkənin regionlarında getdikcə geniş yayıldığını bildirib və dövləti ayıq olmağa çağırıb.

“Pandemiya təcrübəsi göstərir ki, virus mövsümi ritm almamışdan əvvəl 2 və ya 3 dalğada yayılır. Virusun yenidən baş qaldırması ehtimalı son dərəcə yüksəkdir. İkinci dalğa birincidən daha ağır ola bilər. Buna görə də xəstəxanalarda çarpayıların sayı çoxaldılmalı və dövlət ikinci dalğaya hazır olmalıdır”, - deyə virusoloq-həkimlər həyəcan təbili çalırlar.

## “... Daha çox ölüm faktı ilə üzləşəcəyik”

Son günlərdə ABŞ-da COVID-19-a gündəlik olaraq 26 mindən çox yeni yoluxma faktı qeydə alınıb. Xəstəxanalarında koronaviruslu xəstələrin sayı sürətlə artmaqdadır.

“Əl-Cəzirə” telekanalı bildirir ki, yoluxma hallarının artımı ilə bağlı ABŞ-ın cənub və qərb ştatlarında həyəcan yaşanmaqdadır. Son zamanlar COVID-19 virusuna nəzarətin güclənməsinə və virusa qarşı mübarizədə əldə olunan irəliləyişlərə baxmayaraq, bir çox amerikalıların tibbi maska taxmağa və sosial məsafə saxlamağa laqeyd yanaşdıqları səbəbindən xəstəliyin miqyası genişlənir. Məhdudiyyətlərin son bir ay yarım ərzində yumşaldılması virusun yenidən sürətlə yayılmasına səbəb olub, təkcə Florida ştatında infeksiyaya yoluxmuş xəstələrin sayı 100 mini ötüb. Digər ştatlarda da yoluxmada kəskin artım müşahidə edilib.





“Virusa yoluxanların sayı sürətlə artır. Çox güman ki, biz bunun nəticəsində daha çox ölüm faktı ilə üzləşəcəyik”, - deyə Hyuston Metodist Xəstəxanasının baş direktoru Mark Bum bildirib. O, növbəti üç həftə ərzində xəstəxanaların tam dolacağını proqnozlaşdırıb və vətəndaşlara müraciət edərək hamını tibbi maskalardan istifadə etməyə və sosial məsafəni saxlamağa çağırıb.

Texas, Alabama, Florida və Cənubi Karolina ştatları daxil olmaqla bir sıra ştatların qubernatorları da bütün vətəndaşların tibbi maska taxmaq qaydasına riayət etməsinin vacibliyini vurğulayıblar.

Merilend ştatının paytaxtı yaxınlığında yerləşən Fort Vaşinqton Tibb Mərkəzində boş çarpayılar tapmaq müşkül məsələyə çevrilib. Bu, ağır xəstələrin ailə üzvləri üçün heç də ürəkaçan mənzərə deyil və onlar koronavirus təhlükəsinin gerçək olduğuna inanmayan çoxsaylı amerikalılarla bağlı öz məyusluqlarını bildirirlər.

Tənəffüs orqanları üzrə terapevt Kevin Kol qeyd edib ki, indi hamı çimərliklərə can atır və virusun sadəcə bitdiyini düşünürlər. Amma bu, belə deyil, virus yox olmayıb. Bu, hələ son deyil və təəssüflər olsun ki, bu pandemiyanın davam etməsinə səbəb olanlar da məhz həmin insanlar olacaqlar.

## “Müalicə müəssisələrində xəstələrə yer çatmır”

Qazaxıstanın Kostanay vilayətində son günlər koronavirus infeksiyası ilə bağlı epidemioloji vəziyyətin kəskin pisləşməsi müşahidə olunur. Hər gün 50-dən 100-dək yoluxma faktı qeydə alınır. Simptomlu və simptomsuz xəstələr nəzərə alınmaqla, ümumilikdə koronavirusa yoluxanların sayı 518 nəfərədək yüksəlib. Koronavirus infeksiyası bu xəstəliyin əvvəllər qeydə alınmadığı cənub regionlarında da özünü büruzə verməyə başlayıb.

“Yoluxma sayının artması səbəbindən laboratoriyalar, həmçinin xəstələrin müalicəsində iştirak edən tibb işçiləri gərgin iş rejiminə keçiblər. Yaranmış vəziyyətdə tibbi personal iş vaxtından əlavə çalışmağa məcburdur. Bu da təbii ki, onların səhhətinə mənfi təsir göstərir. Bundan başqa, müalicə müəssisələrində xəstələrə yer çatmır. Ehtiyat yataq yerlərinin açılması istiqamətində işlər görülür”, - deyə Kostanay vilayətinin baş dövlət sanitar həkimi Vladimir Neçitaylo bildirib.

Belə bir vəziyyətin yaranmasının əsas səbəbləri sırasında o, əhalinin, eləcə də sahibkarlıq subyektlərinin məhdudlaşdırıcı tədbirlərə kütləvi əməl etməməsini vurğulayıb: “Qadağalara baxmayaraq, kafe və restoranlarda ziyafət, toy, şənliklər keçirilir. Kostanay vilayətindəki iki uşaq bağçasının işçiləri arasında COVID-19-a yoluxma faktı aşkarlanıb”.

Xəstələrin sayının artması ilə əlaqədar vilayətdə iyunun 23-dən 30-dək karantin rejiminin gücləndirilməsi, məktəbəqədər müəssisələrin, idman obyektlərinin fəaliyyətinin dayandırılması, həmçinin ictimai iaşə obyektlərində iş rejiminin məhdudlaşdırılması qərara alınıb.

Ukraynada koronavirusun yayılması ilə əlaqədar təhlükəli epidemioloji vəziyyət yaranıb. Bu barədə Ukrayna Səhiyyə Nazirliyi məlumat yayıb. Bildirir ki, ölkədə son sutkada koronavirusa 940 nəfər yoluxub. Bununla da Ukraynada COVID-19-a yoluxanların sayı 39 min 14 nəfərə çatıb. Virusdan ölənlərin sayı 1050 nəfərə yaxındır.

Qeyd edək ki, Ukraynada koronavirusla bağlı vəziyyət pisləşdiyindən karantin müddəti iyulun 31-dək uzadılıb. Bəzi bölgələrdə karantin qaydaları sərtləşdirilib. Son 2 həftədə koronaviruslu xəstələrin birgünlük artımı müşahidə olunur. Ukrayna hökuməti, o cümlədən Səhiyyə Nazirliyi hesab edir ki, bu artımın əsas səbəbi karantin məhdudiyyətlərinin zəiflədilməsi və əhalinin müəyyən edilmiş qaydalara riayət etməməsidir.

İranda koronavirusa yoluxanların ümumi sayı 209970-ə, ölənlərin sayı isə 9863-ə yüksəlib. Mütəxəssislər İranda vəziyyətin belə ağır olmasını karantin tədbirlərinin vaxtından əvvəl yumşaldılması ilə əlaqələndirərək infeksiyanın yayılmasının ikinci dalğasının başladığını bəyan ediblər. İran rəsmiləri də karantin tədbirlərinin yenidən sərtləşdirilməsinin zərurət olduğunu bildiriblər.

Türkiyənin Karabük vilayətinin ən böyük yaşayış yeri olan Cumayanı bölgəsi pandemiya dövrü ərzində ikinci dəfə karantinə alınıb. COVID-19-a yoluxma hallarının yenidən artması səbəbindən bölgəyə giriş-çıxışlar qadağan olunub. Ümumi əhali sayı beş min nəfər olan bölgədə mindən çox yoluxma faktı qeydə alınıb.

Xatırladaq ki, bu həftəsonu Türkiyə ərazisində növbəti dəfə komendant saatının elan ediləcəyi gözlənilir.

Azərbaycanda da son vaxtlar epidemioloji vəziyyətin pisləşməsi xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsini zəruri etdi. Sərtləşdirmə tədbirlərinin tətbiqində məqsəd ölkədə koronavirusun yayılma sürətini və xəstəlikdən ölüm hallarını azaltmaqdır.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Mixail Qusman Bakıya “Əmək rəşadəti şəhəri” adı verilməsini təklif edib

TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Bakıya “Əmək rəşadəti şəhəri” adı verilməsini təklif edib.

AZƏRTAC xəbər verir ki, bu təkliflə o, Rusiya Tarix Cəmiyyətinin iclasında çıxış edib. M.Qusman xatırladıb ki, Bakı faşizm üzərində qələbəyə böyük töhfələr verib.

M.Qusman qanuna dəyişiklik edilməsi, Rusiyanın hüdudlarından kənarda yerləşən və ümumi qələbəyə töhfələr vermiş şəhərlərə də “Əmək rəşadəti şəhəri” adının təqdim edilməsi təklifini irəli sürüb. Belə şəhərlər sırasında Mixail Qusman Bakı və Daşkəndi nümunə gətirib. O vurğulayıb ki, Şərq cəbhəsini 80 faiz yanacaq-sürtkü materialları ilə Bakı təmin edirdi. Daşkənddə isə 130 hospital fəaliyyət göstərirdi və bir milyondan çox əsgər həmin xəstəxanalarda müalicə olunurdu.

Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin “Əmək rəşadəti şəhəri” adının təsis edilməsi barədə fərmanı bu ilin mart ayında imzalayıb. Bu fəxri ad İkinci Dünya müharibəsi illərində sakinləri arxa cəbhədə durmadan çalışaraq cəbhəni hərbi və mülki məhsullarla təmin edən şəhərlərə verilir.

# Azərbaycanda koronavirusa daha 590 nəfər yoluxub, 265 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 590 yoluxma faktı qeydə alınıb, 265 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 14 min 305 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 7768 nəfər müalicə olunaraq sağalıb, 174 nəfər vəfat edib. Aktiv xəstə sayı 6363 nəfərdir.

Ötən müddət ərzində 441 min 961 test aparılıb. Dünənki test sayı isə 9103-dür.

Milli maraqlar naminə əməkdaşlıq

# Azərbaycanın yeni siyasi konfiqurasiyası Prezident İlham Əliyevin iradəsinin nəticəsidir

Əvvəli 1-ci səh.

“Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Azərbaycanın dünyada mövqeyi, onun gündən-günə qüdrətli dövlətə çevrilməsi önəmli faktordur. İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət və ölkədə tətbiq etdiyi yeni idarəçilik modeli əhalinin sosial rifah halının yaxşılaşmasına, işsizliyin və yoxsulluğun aradan qaldırılmasına öz töhfəsini vermişdir. Bu siyasətin mərkəzində isə Azərbaycan vətəndaşının dayanması olduqca sevindirici haldır. Cənab Prezidentin də vurğuladığı kimi, son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Bunu ölkədə aparılan islahatların nəticəsi olaraq, əldə edilmiş sosial və iqtisadi uğurlarımız da təsdiq edir. Bu isə bir daha cənab Prezidentin tətbiq etdiyi yeni idarəçilik modelinin başqa uğurlu alternativinin olmamasının sübutudur.

Qeyd etmək gərəkdir ki, son 17 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bunu hətta biz COVID-19 pandemiyası ilə mübarizə mərhələsində, sözün əsl mənasında, Azərbaycan iqtisadiyyatı ilə inkişaf etmiş ölkələrin iqtisadi vəziyyətini müqayisə edərkən də görə bilərik. Hesab edirəm, qısa bir zamanda müharibə şəraitində yaşayan bir ölkə üçün bu olduqca böyük uğurdur. Bu zaman kəsiyində Azərbaycan böyükmiqyaslı layihələrə imza atmağa müvəffəq oldu. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, “Cənub qaz dəhlizi”, Bakı-Tbilisi-Qars, “Şimal-Cənub Nəqliyyat Dəhlizi” kimi önəmli layihələr həyata keçirməyə müvəffəq oldu. Bütün bunlar bizə respublikamızın gələcək inkişafı üçün möhkəm zəmindir, deməyə əsas verir”.

### Hakimiyyət müxalifətin təklif və istəklərini dinlədi

ASRP sədrinin birinci müavini ilə partiyanın fəaliyyəti, xüsusən cəmiyyətin müasirləşən siyasi həyatında təşəbbüs, proqram və təkliflərlə çıxış etməsi barədə də söhbətləşdik. Bu barədə danışan Əsli Kazımova öncə onu bildirdi ki, ASRP son illərdə beynəlxalq əlaqələrini gücləndirməyə nail olmuşdur və cəmiyyətin müasirləşən siyasi həyatında diaspor və lobbiçilik istiqamətində mühüm addımlar atmaqdadır: “Hesab edirik ki, beynəlxalq media cəbhələri quraraq, başqa ölkələrin mətbuatında Azərbaycan həqiqətlərinin duyurulması üçün xarici jurnalistlərin fəaliyyətini izləmək gözəl təəssüratdır. Düşünürəm ki, ASRP-nin imza atdığı bu kimi önəmli layihələr, dövlətimizin milli və mənəvi idealogiyasına dayanaraq həyata keçirilir və bu tendensiyaya dayanan bütün istiqamətlərin hər gün daha dinamik şəkildə inkişafını görmək mümkündür. Bu tendensiya isə müxalif partiya olaraq Dövlətə, Xalqa və Vətənə xidmət etməyə bizə maneə olmamalıdır”.

Respublikamızın yeniləşən siyasi sisteminin ən mühüm göstəricilərindən biri siyasi komponentləri arasında yeni müzakirələrin - dialoqun başlamasıdır. ASRP da bu prosesdə ilk gündən fəal iştirak edən partiyalardan biridir. Əsli Kazımova bu barədə danışaraq dedi: “Siyasi sistemin başlıca funksiyası cəmiyyəti səmərəli idarə etməkdir. İdarəetmə müvafiq dövlət orqanları tərəfindən qərarların qəbul edilməsi və yerinə yetirilməsi prosesidir ki, bu gün bu proses siyasi partiyaların mərkəzləşdirilmiş şəkildə, ictimai funksiyanın hüquqi normalarının tənzimlənməsi ilə həyata keçirilir. Bu gün ölkədə demokratiyanın prinsiplərindən biri olan uzlaşma prinsipinə əsasən iqtidarla müxalif partiyalar arasında dialoqun reallaşması ölkədaxili siyasi sabitliyin təmin olunması adına önəmli bir addım kimi dəyərləndirilə bilər.

Bir çox müxalif partiyalar iqtidarla danışıqlara getməyi satqınçılıq adlandırır. Amma bu cür yanaşma olduqca yanlışdır. Necə olur, işğalçı Ermənistanla danışıqlar aparmaq mümkün olur, amma dövlətlə ölkədəki sabitlik adına, gənclərin xaricdən qrant ala bilmək üçün istifadə olunmasına son qoymaq adına danışıqlara getmək olmur? Digər tərəfdən bu cür yanaşma birmənalı olaraq qeyri-politik yanaşma deməkdir. Dövlət başçısının təşəbbüsü və Prezident Administrasiyasının yeni yaradılmış Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə individual olaraq ölkədə fəaliyyət göstərən 50-yə yaxın partiya rəhbəri ilə görüşlər keçirildi. Bu isə birmənalı olaraq iqtidarın müxalif partiyalarla demokratikləşmə yolunda dialoqunun baş tutması deməkdir. Yeni siyasi dialoq təşəbbüsü iqtidarın müxalif partiyaların fikir və təkliflərini öyrənmək niyyətini təsdiq edir.

Bu görüşlər çərçivəsində hakimiyyət müxalif partiyaların təklif və istəklərini dinlədi. Azərbaycan Sosial Rifah Partiyası iqtidar və müxalif partiyalarının dialoqunun baş tutmasını hakimiyyətin müxalif partiyaların fikir və təkliflərini dinləmək üçün fürsət kimi dəyərləndirir. Əslində, Azərbaycan iqtidarı dialoq üçün hər zaman açıq olub. Dəfələrlə də hakim partiyanın nümayəndələri bu barədə fikirlərini açıq şəkildə ifadə ediblər. Məqsədi dövlətə və xalqa xidmət etmək olan müxalif partiyalar iqtidarla dialoqa getdi. Lakin müxalifətin radikal qanadını təmsil edən partiyalar belə görüşlərə maraq göstərmədikləri üçün özlərini təcrid etmək mövqeyində qaldılar”.

Əsli Kazımovanın, fikrincə, həmin partiyaların özlərini təcrid etmələrinin sadə bir səbəbi var ki, bu da ölkədə sabitliyi pozmaq kimi mövqe nümayiş etdirməklə xaricdən diqqəti özlərinə cəlb etmək və maliyyə yardımı ala bilməkdir. Amma müxalifətin digər qanadı ilə, o cümlədən Milli Məclisdə təmsil olunan partiyalarla iqtidarın ən müxtəlif səviyyələrdə görüşlərinin davamlı olaraq keçirilməsi Azərbaycanın daxili siyasi sabitliyinə öz töhfəsini verəcək. Ümumiyyətlə, ölkə rəhbərinin bütün istiqamətlərdə fəaliyyətinin əsas məqsədinin xalqımızın rifahının yüksəldilməsindən ibarət olması Azərbaycanda dövlət-xalq birliyini daha da gücləndirir. “Qardaş Türkiyəyə baxın. Müxalif partiyaları var. Amma savaş meydanında müxalifət və iqtidar partiyalarının birgə dialoqu ilə düşmənə anında cavab da verilir. Hər bir xarici təzyiq qarşısında müxalif və iqtidar partiyalar güclərini düşmənə qarşı birləşdirməyi bacarır. Biz də bunu bacarmalıyıq! Demokratiya budur. Yeri gələndə iqtidarla həmfikir olub xarici təzyiqlərə qarşı birgə fəaliyyət göstərməkdir demokratiya”, - deyə o bildirdi.

### Dialoqdan qaçmaq demokratiya deyil

Təbii ki, yeniləşən siyasi sistemdə müxalifətin iştirakı, rolu, funksiyası, fəaliyyəti də fəal olmalıdır. Bu baxımdan müxalifət partiyalarının fəaliyyətində təkmilləşməyə ehtiyac olduğu da birmənalıdır. ASRP də partiyaların fəaliyyətinin təkmilləşməsinin vacibliyi qənaətindədir: “Bunu məcburiyyət tələb edir! Azərbaycanda əvvəl yeni siyasi mərhələ başlayıb. Ölkədə köklü islahatlar aparmaq o qədər də asan hal deyil. Bilirsiniz, islahat aparmağa nə hər lider müvəffəq olur, nə də hər xalq bunu qəbul edir. Misal üçün Fransa təcrübəsinə baxaq. Fransız xalqını hər kəs dünyada hər hansısa dəyişikliyə qarşı çıxan xalq kimi tanıyır. Makron nə qədər ölkədə köklü islahatlar aparmaq niyyətini ortaya qoysa da, fransız xalqı bunu qəbul etmək istəmir. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı köklü islahatları Makron Fransada həyata keçirə bilmir. Amma Azərbaycan buna



müvəffəq oldu. Bu çox mühüm faktordur.

Müxalifət, xüsusən də radikal müxalifət Azərbaycanın ilk müstəqillik qazandığı illərdəki siyasi psixoloji təfəkkürdə qalıb. Heç bir inkişaf və təkmilləşmə üçün iş görülmür. Hesab edirəm, müxalifət necə radikal olursa olsun, bu gün fikir və təfəkkür olaraq bir çox məqamda iqtidarla birləşməyi bacarmalıdır. Dağlıq Qarabağ məsələsi sadəcə iqtidarın problemi deyil, bütün dünyanın mübarizə apardığı COVID-19 pandemiyası sadəcə iqtidarın qayğısı və işi deyil. Ölkədə milli idealogiyaya xidmət edən, xarici qrantlara satılmayan sağlam gəncliyin yetişdirilməsi üçün çalışmaq sadəcə iqtidarın işi deyil. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, lobbiçilik, beynəlxalq mətbuatda işğalçı ermənilərə qarşı cəbhə qurmaq sadəcə iqtidarın işi deyil. Bu gün dünyadakı mövcud siyasi mexanizmlər müxalifətdən də bunları tələb edir”.

ASRP sədrinin birinci müavininin fikrincə, özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan radikal müxalif partiyaların neondertal təfəkkürlə, gəncləri xaricdən qrant almaq adına istifadə edib, onları qanun pozuntularına sövq etməsi müxalifətçilik demək deyil: “İqtidarla dialoqdan qaçmaq, gəncləri öz maraqları çərçivəsində istifadə edərək, ictimai asayişi pozduraraq, onlara “qorxma, bir həbslə heç nə olmaz, siyasi mühacir adı ilə xaricdə yaşayacaqsan” kimi vədlərlə dövlətə qarşı çıxmağa məcbur etmək demokratiya deyil. Bunun adı ölkədaxili xaosun yaradılması üçün xaricdən əldə edilən qrantların silinməsi prosesidir”.

### Müxalif deputatların irəli çəkilməsi yeni siyasi mərhələnin başlanğıcıdır

Hazırda müxalifət partiyalarının ölkənin siyasi həyatında iştirakına gəldikdə Əsli Kazımova qeyd etdi ki, Prezident İlham Əliyev Milli Məclisdə çıxış edərkən pozitiv fəaliyyətdə olan bütün partiyaların ölkədə baş verən hadisələrə yaxından cəlb olunmasının mütləqliyini vurğuladı: “Bu gün Milli Məclisdə 8 müxalif partiya və bir iqtidar partiyası təmsil olunur. Müxalif deputatlar rəhbər strukturlara seçiliblər. Bunlar partiyaların Azərbaycanın ictimai və siyasi həyatında aktiv və fəal rol oynaması üçün gərəkli addımlardır.

Milli Məclisdə çoxlu sayda partiyanın təmsil olunması və müxalif deputatların rəhbərlikdə irəli çəkilməsi birmənalı olaraq, yeni siyasi mərhələnin başlanğıcıdır. Çünki cəmiyyətdə qanunverici hakimiyyət sahəsində yeniləşməyə, parlamentin qanunyaratma fəaliyyətinin daha da təkmilləşdirilməsinə, ümumiyyətlə, parlamentin öz işini islahatlar strategiyasına uyğun olaraq təşkil etməsinə ehtiyac vardı. Bu baxımdan bütün bunlar siyasi islahatların məntiqi davamı kimi qiymətləndirilməlidir”.

### Daxili sabitliyin qorunması üçün güclü siyasi iradə var

Bu gün bütün dünyanın əsas problemi koronavirus təhlükəsidir. Bu infeksiyanın sürətlə yayılması dünyanın ən qabaqcıl dövlətlərinin səhiyyə sistemlərini çətin vəziyyətə saldı. Azərbaycan isə pandemiya ilə mübarizədə uğurlu nümunələrdən birini göstərir.

Bu barədə danışan ASRP sədrinin birinci müavini dedi: “Cənab Prezidentin təşəbbüsü ilə ölkədə hələ pandemiya yeni başlayanda həyata keçirilən tədbirlər proqramı Azərbaycana zaman və uğur qazandırdı. Avropanın ən inkişaf etmiş ölkələri pandemiya qarşısında, sözün əsil mənasında, diz çökdü. Ermənistanın pandemiya adı altında yardım istəmədiyi ölkə yoxdur. Bu gün ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı tədbirlər proqramı, birmənalı olaraq, cənab Prezidentin güclü və mütəşəkkil daxili siyasətinin bəhrəsidir. İlham Əliyevin hər bir sərəncamı birbaşa ölkədəki sabitliyin qorunması və xalqın təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Digər ölkələrdəki vəziyyəti görürük. Hətta çox vaxt Avropaya inteqrasiya deyirdik. Yəni Avropa ölkələrini daha inkişaf etmiş hesab edirdik. Amma koronavirus pandemiyası göstərdi ki, onların ölkədaxili sabitliyin qorunması baxımından heç də təcrübələri yoxdur. Azərbaycanda isə daxili sabitliyin qorunması üçün güclü siyasi iradə var. İnsanların təhlükəsizliyi üçün çalışan dövlət rəhbərimiz var.

Hesab edirəm, dünyanı bürüyən COVID-19 pandemiyası dövründə cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə bərqərar olan mövcud sabitlik və xalqın sosial təminatı Avropanın ən inkişaf etmiş ölkələrində müşahidə olunmadı. Məndə olan məlumatlara görə, bir çox dövlətlərin Azərbaycanda olan nümayəndələri öz ölkələrinə getməkdən imtina edib və pandemiya dövründə Azərbaycanda qalmağın daha təhlükəsiz olduğunu bildirirlər”.

### Hər bir məmur tutduğu vəzifənin məsuliyyətini dərk etməlidir

Əsli Kazımovadan ölkədə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə bağlı ASRP-nin mövqeyini də öyrəndik. Onun sözlərinə görə, Prezident İlham Əliyev dəfələrlə məmurlara “siz xalqın xidmətçisisiniz” deyə tapşırıb və dövlət başçısı üçün xalqın maraqları hər şeydən üstündür: “Cənab Prezident bunu dəfələrlə verdiyi qərarlarla sübuta yetirmişdir. İlham Əliyevin nümunəvi dövlət idarəçilik modeli birmənalı olaraq xalqa sədaqətlə xidmət etmək məqsədi daşıyır. Bu siyasət xalqın rifahının yaxşılaşdırılması və vətəndaş məmnunluğunun hər gün bir az daha artırılmasına hesablanıb. Dəfələrlə dövlət başçısı dövlət qulluqçularının, məmurların şəffaf fəaliyyət göstərməsinin gərəkliyini bildirərək, vətəndaş-məmur münasibətlərinin daha sağlam prinsiplər əsasında qurulması üçün səylərin artırılmasını tövsiyə edib.

Təəssüflər olsun ki, məmurlar tərəfindən bir sıra neqativ halların təkrarlanması faktları hələ də müşahidə olunur və cənab Prezident tərəfindən aparılan islahatların geniş vüsət alması ilə bir çox neqativ əməllərin də üstü açıldı. Buna misal olaraq Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Yevlax şəhərinin və Ağstafa, Biləsuvar, İmişli və Neftçala rayonlarının icra hakimiyyəti başçılarının və icra nümayəndələrinin cinayət məsuliyyətinə cəlb olunaraq həbsini göstərmək olar. Mədəniyyət Nazirliyində yüksək vəzifəli şəxslərin öz səlahiyyətlərindən sui-istifadə edərək cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərinin ifşa olunması və hüquqi məsuliyyətə cəlb olunmasını müşahidə etdik. Mədəniyyətdə korrupsiyaya yol vermək, mədəniyyəti məhv etmək deməkdir. Onsuz da işğalçı Ermənistan Azərbaycan mədəniyyətinə yetəri qədər zərər verib və hələ də davam edir. Bizlər erməni vandalizmi ilə öz mədəni irsimizi qorumaq üçün mübarizə apardığımız halda, ölkənin mədəniyyət sahəsində bu kimi yolverilməz halların qarşısı ən sərt şəkildə alınmalıdır.

Tamahkar və məsuliyyətsiz məmurların fəaliyyəti Prezidentin apardığı siyasətə zidd olaraq geniş əhali qruplarını narazı salmağa yönəlmiş əməllərə xidmət edir. Göründüyü kimi, dövlət başçısı kimliyindən asılı olmayaraq xalqın rifahına, göstərilən etimada xəyanət edən hər kəsin ədalət qarşısında cavab verməsi üçün əlindən gələni edir. Xalqına, vətəninə, mənəviyyatına və məsləyinə müxalif olan heç kəs dövlətinə xeyir verə bilməz!”

Əsli Kazımova onu da bildirdi ki, hər bir məmur tutduğu vəzifənin məsuliyyətini dərk etməli, daşıdığı məsuliyyəti anlamalı və ölkə başçısının apardığı islahatlara uyğun fəaliyyət göstərməlidir: “Məmurlar unutmamalıdır ki, oturduqları kürsü onların şəxsi maraqlarına xidmət edən nə ayrı respublika, nə də ayrı bir dövlət deyil. Cənab İlham Əliyevin yeni dövlət modeli proqramının əsas mahiyyəti qanunvericiliyə uyğun olaraq demokratik prinsiplər əsasında dövlət idarəçiliyinin həyata keçirilməsidir. Hər birimiz isə bu müqəddəs yolda Cənab Prezidentin köməkçisi olmalıyıq”.

### Azərbaycanı qüdrətləndirmək məqsədi konkret icra mexanizmləri ilə özünü göstərir

Son illər Azərbaycan öz iqtisadiyyatını yeni müstəvidə inkişaf etdirməyə nail olub. Bu gün milli iqtisadiyyatımız kompleks və tarazlı şəkildə inkişaf edir. Bu barədə danışan Əsli Kazımova dedi: “Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 17 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Boru Kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, üç süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir. Azərbaycanın sosial-iqtisadi sahədə həyata keçirdiyi siyasətin uğurlarını şərtləndirən əsas amillərdən biri də məhz inkişafın mərkəz və regionlar üzrə tarazlı xarakter daşıması, rentabelli istehsal sahələrinin ölkənin bütün regionlarını əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlı olmasıdır. Məhz bu iqtisadi strategiya regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsinə şərait yaradır. Ölkədə sosial-iqtisadi inkişaf proqramlarının tətbiqi regionların iqtisadi inkişafında tamamilə yeni səhifə açmış, insanların kəndlərdən şəhərlərə axınının qarşısını almış, xüsusilə də qeyri-neft sektorunun, sahibkarlığın inkişafına xüsusi təkan vermişdir.

Cənab İlham Əliyevin Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqsədi öz əksini sadəcə bəyanatlarda tapmır, eyni zamanda konkret icra mexanizmləri ilə özünü göstərir və konkret addımlar atılır. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası və “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” kimi konseptual əhəmiyyətli böyükmiqyaslı layihələr vasitəsilə cənab Prezident ölkənin inkişaf strategiyasının dərin elmi proqnozlarla hazırlanmasına və nəticə etibarilə yeni dövlət idarəçiliyi modelini tətbiq etməyə müvəffəq olmuşdur. Bu gün dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın postneft dövrünə uyğunlaşdırılması, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədi daşıyır”.

ASRP sədrinin birinci müavini Əsli Kazımova bildirdi ki, Azərbaycanda demokratik cəmiyyətin inkişafı Prezident İlham Əliyevin siyasi iradəsinin bəhrəsidir. Eyni zamanda İlham Əliyev tərəfindən aparılan köklü islahatlar ölkənin həyatının bütün sahələrini əhatə etməklə yanaşı, inkişafın yeni mərhələsinə keçid üçün əlverişli şəraitin yaradılması kimi də dəyərləndirilməlidir.

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Beynəlxalq Frankofoniya Təşkilatına üzv və müşahidəçi statusuna malik ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin rəhbərləri ilə videokonfrans formatında görüş keçirilib

**İyunun 24-də Xarici İşlər naziri Elmar Məmmədyarovun Beynəlxalq Frankofoniya Təşkilatına (BFT) üzv və müşahidəçi statusuna malik olan 18 ölkənin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərləri ilə videokonfrans formatında görüşü keçirilib.**

XİN Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Fransanın Azərbaycandakı səfiri Zakari Qros, Azərbaycan Respublikasının Xarici İşlər naziri və BFT-yə tam hüquqlu üzv, assosiativ üzv və müşahidəçi statusuna malik ölkələrin nümayəndələri arasında təşkil edilən bu ilk görüşə görə minnətdarlığını ifadə edib.

Səfir, həmçinin koronavirus pandemiyası ilə əlaqədar yaranmış hazırkı durumda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin istər koronavirusa qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlıqda, istərsə də Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusla əlaqələndirmə işində vacib rol oynadığını qeyd edib.

Nazir Elmar Məmmədyarov, öz növbəsində, Azərbaycanın 2020-ci il üzrə xarici siyasət prioritetləri, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının koronavirusla mübarizədə həmrəylik, çoxtərəflilik və beynəlxalq əməkdaşlıq mövzusunda xüsusi sessiyasının çağırılması təşəbbüsü, habelə fransız dilinin Azərbaycanda yeri və təşviqindən danışıb.

Nazir, həmçinin səfirlərin suallarını cavablandıraraq, koronavirus infeksiyası ilə bağlı vəziyyət, Azərbaycanın dövlət sərhədlərinin yenidən açılması və beynəlxalq uçuşların bərpası perspektivləri ilə bağlı fikirlərini bölüşüb.

Nazir Elmar Məmmədyarov fransızdilli səfirlər qrupunun Azərbaycanda hər il ənənəvi təşkil edilən “frankofoniya həftəsi” tədbirlərinə dəvətini məmnuniyyətlə qəbul edib.

# İlham Əliyevin hücum diplomatiyası erməni yalanlarını darmadağın edir

Əvvəli 1-ci səh.

Bəyanatda deyilir: **“Bu magistralın inşası qərarı Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan qəbul edilib və beynəlxalq hüquq pozulub. Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Buna görə də bu təşəbbüsdən çox təəssüflənirik, çünki bu, etimad, sülh və barışıq mühiti yaratmağa kömək etmir”.**

Bu cümlələrdən göründüyü kimi, AP səlahiyyətliləri ilk növbədə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktını qəbul edir və buna görə də beynəlxalq hüququn normalarının pozulduğunu bildirirlər. Bəyanatda “Dağlıq Qarabağın və ətraf rayonların işğalı” ifadəsi işlədilir. Bu da Avropa təsisatları tərəfindən işğal faktının təsdiq olunduğunu göstərir.

Bəli, rəsmi Bakı öz uğurlu siyasəti ilə erməni yalanlarını ən mötəbər səviyyələrdə darmadağın edir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq müzakirələrdə vəziyyəti öz xeyrinə dəyişir. Təbii ki, bütün bunlar münaqişə ilə bağlı ikili standartların da qarşısını alır, beynəlxalq təşkilatları məsələ ilə bağlı daha oybektiv davranmağa, əsl həqiqətləri səsləndirməyə vadar edir.

Ona görə bu bəyanat beynəlxalq səviyyədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistana vurulan diplomatik zərbə kimi tarixə düşdü. Ən əsası bu hadisə danışıqlar prosesində Azərbaycanın mövqelərinin daha da güclənməsinə xidmət edən mühüm siyasi hadisə oldu.

### Ermənistana vurulan növbəti siyasi-diplomatik zərbə

Son günlərin başqa bir mühüm siyasi hadisəsi Prezident İlham Əliyev tərəfindən Ermənistanın baş naziri N.Paşinyanın növbəti dəfə beynəlxalq tədbir çərçivəsində yerində otuzdurulması oldu. Öncə onu qeyd edək ki, son dövrlərdə Rusiyanın Soçi şəhərində “Valday” Diskussiya Klubunun toplantısında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən müzakirələrdə Prezident İlham Əliyev öz çıxışlarında Ermənistanın işğalçılıq siyasətini siyasi uzaqgörənliklə ifşa edib. Ona görə bu tədbirlərin hər biri həm Ermənistana vurulan diplomatik zərbə, həm də Paşinyana dəyən “şillə” kimi yadda qalıb. İlham Əliyev ölkəmizin maraqlarını, ədalətli mövqeyini bütün platformalarda ən yüksək səviyyədə və qətiyyətlə müdafiə edərək Azərbaycanın hücum diplomatiyasının beynəlxalq səviyyələrdə uğur qazanmasını, mövqelərinin daha da möhkəmlənməsini təmin edib.

Bu siyasətin davamı olaraq Ermənistana növbəti diplomatik zərbə Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində vuruldu. Əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, Prezident İlham Əliyev bir daha Ermənistanın işğalçılıq siyasətini diplomatik peşəkarlıqla ifşa etdi, eyni zamanda bu ölkənin terrorçuluğu dəstəklədiyini əsaslı faktla dünyaya çatdırdı. **“Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim**” deyən Prezident İlham Əliyev Paşinyanın bütün söylədiklərini, arqumentlərini darmadağın etdi və həm də ona öz yerini göstərdi.

Təsadüfi deyil ki, bu hadisə Ermənistanın siyasi dairələrində də ölkənin növbəti diplomatik məğlubiyyəti və uğursuzluğu kimi nəzərdən keçirilir. Beləliklə, Şərq Tərəfdaşlığı ölkələrinin Sammiti və N.Paşinyanın bir daha özünü ictimaiyyət qarşısında biabır etməsi ilə sonuclandı. Hər dəfə olduğu kimi, beynəlxalq təşkilatların tədbirində söz alıb Prezident İlham Əliyevin fikirlərinə cavab vermək istəyən erməni baş nazir yenə də özü-özünü çıxılmaz vəziyyətə saldı, söhbətə qeyri-peşəkar müdaxiləsi, cılız davranış tərzi ilə təcrübəli dövlət başçıları və siyasətçilər arasında tamamilə yad biri olduğunu göstərdi.

İlham Əliyevin hücum diplomatiyası bütün sahələrdə uğurlu nəticəsini göstərir. Azərbaycan dövləti hər bir beynəlxalq təşkilatda Ermənistanın işğalçılıq siyasətini hərtərəfli ifşa edir. Görünən odur ki, zaman artıq Azərbaycanın xeyrinə işləyir. Yaranmış bu yeni tarixi reallıq isə mütləq dövlətimizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnəcək.

***R.CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Müdafiə Nazirliyinin daha bir hərbi hissəsinin açılışı olub



Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-leytenant Fuad Məmmədov “N” saylı hərbi hissənin yeni inşa edilmiş infrastrukturunun açılışında iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavini hərbi hissədə yeni inşa edilmiş yeməkxana, qarovul şəhərciyi və qarovul evi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Şəxsi heyətin qidalanması üçün nəzərdə tutulan yeni tikilmiş yeməkxana binası müasir standartlara cavab verən qazanlar, sobalar, soyuducular və digər məişət texnikası, müvafiq mebel və inventarla təchiz olunub. Yeməkxanada soyuducu kamera otaqlarından ibarət ərzaq anbarı var.

Məlumat verilib ki, hərbi hissədə şəxsi heyətin peşəkar hazırlığı və döyüş vərdişlərinin artırılması üçün bütün şərait yaradılıb.

# ADA Universitetindən növbəti beynəlxalq layihə

## Doktorantura proqramı gənc hüquqşünas alim kimi formalaşmaq arzusunda olanlara təkrarsız fürsətdir

**Azərbaycanın ali təhsil ocaqları arasında xüsusi yeri olan ADA Universiteti fəaliyyətə başladığı vaxtdan etibarən müxtəlif ölkələrin tanınmış universitetləri ilə əməkdaşlıq edir, əcnəbi tələbələrin cəlbi istiqamətində müxtəlif fəaliyyətlər həyata keçirir, qarşılıqlı memorandumlar imzalayır, çoxsaylı beynəlxalq layihələr, proqramlar həyata keçirir. Belə proqramlardan biri də ADA Universitetinin Martin Lüter adına Halle-Vittenberq Universitetinin (MLU) birgə əməkdaşlığı ilə təqdim etdiyi hüquq üzrə doktorantura proqramıdır. ADA Universitetinin Hüquq Proqramının direktoru Rəşad İbadovdan bu proqramın məqsədi, xüsusiyyətləri, üstünlükləri, qəbul qaydaları haqda aldığımız müsahibəni oxuculara təqdim edirik.**




***- ADA Universitetinin Martin Lüter adına Halle-Vittenberq Universitetinin (MLU) birgə əməkdaşlığı ilə təqdim etdiyi hüquq üzrə doktorantura proqramının əsas məqsədi nədir?***

- Öncə onu qeyd edim ki, ADA Universitetinin Hüquq Proqramı 2018-ci ildə yaradılıb. Bu proqram mükəmməl hüquq biliyinə, analitik və kritik hüquq düşüncə tərzinə və hüquqi müqayisə aparmaq bacarığına sahib, hüquq ilə cəmiyyətin digər sahələrindəki əlaqəni çevik şəkildə dəyərləndirməyi bacaran, peşəkar və effektiv kommunikasiya vərdişlərinə malik olan, qlobal hüquq çağırışlarına cavab verən və oturuşmuş etik dəyərlər nümayiş etdirən hüquqşünasların yetişdirilməsini nəzərdə tutur.

Bu məqsədləri və Hüquq Proqramının elmi-hüquqi tədqiqat strategiyasını nəzərə alaraq, ADA Universiteti Avropanın bir sıra tanınmış universitetləri ilə əməkdaşlığa başlayıb və bir neçə ABŞ universitetləri ilə oxşar məzmunlu akademik əlaqələrin qurulmasını yaxın gələcək üçün qarşısına məqsəd qoyub. Bu istiqamətdə Almaniyanın tarixən nüfuzlu və müasir alman hüquq təhsilində ciddi elmi çəkiyə malik olan Martin Lüter Universiteti ilə birgə hazırlanmış Hüquq üzrə Doktorantura Proqramını misal göstərmək olar. Doktorantura proqramının əsas məqsədi ADA Universitetinin Hüquq Proqramının müasir hüquq təhsili standartlarına uyğun daimi inkişafını, MLU-da hüququn əsas sahələri üzrə doktorluq dərəcəsi almış perspektivli alim hüquqşünasların, professor-müəllim heyətinin tədrisə cəlb edilməsi ilə təmin etməkdən ibarətdir.

Doktorluq proqramının bir neçə vacib xüsusiyyətlərini qeyd etmək yerinə düşərdi. Belə ki, proqramın kurrikulumu hər bir doktorant tələbə üçün fərdi şəkildə və elmi rəhbərin razılığı əsasında tərtib olunur. Doktorluq proqramının ortalama müddəti 4 il yarımdır və bu müddət ərzində tələbələrin daimi olaraq Almaniyada yaşaması tələb olunur. Elmi-hüquqi tədqiqatın əhəmiyyətli hissəsi Almaniyada həyata keçirildikdən (ortalama 2-3 il) sonra müstəsna hallarda və elmi rəhbərin razılığı əsasında doktorant tələbələr daimi əsaslarla Azərbaycana qayıda və ya doktorluq işinin müəyyən araşdırmasını digər universitetdə apara bilərlər. Bundan əlavə, tələbələr doktorantura proqramının tədqiqat mərhələsini bitirdikdən sonra müəyyən qısa zaman intervallarında Azərbaycana qayıdaraq ADA Universitetində müvafiq akademik işlərlə (məsələn, seminar və vorkşoplar təşkil etməli, elmi məruzələrlə çıxış etməli) məşğul olmalıdırlar.

Doktorluq dissertasiyası yalnız ingilis və ya alman dilində yazıla bilər. Lakin onu da vurğulamaq lazımdır ki, bütün doktorant tələbələr MLU-da təklif olunan müvafiq hüquq fənlərini alman dilində uğurla başa vurmalıdırlar. Bu baxımdan namizədlərin müvafiq dilləri bilməsi və ya öyrənməsi (ingilis dili üzrə minimum 6.5 bal IELTS və ya minimum 85 bal TOEFL nəticəsi; alman dilindən ən az B2 səviyyə) tələb ediləcək. Təhsil müddətində hər bir tələbə 1.500 avro məbləğində aylıq təqaüdlə təmin olunacaq. MLU tələbələrə yaşayışla bağlı müvafiq texniki dəstək də (məsələn, ev və ya yataqxana tapılması, viza məsələlərinin həlli və s.) göstərəcək. Təqaüdlər yalnız doktorant tələbənin yaşayış xərclərini əhatə edəcək. Tələbənin ailəsinin və ya öhdəliyində olan şəxslərin xərclərinin ödənilməsi bu proqramda nəzərdə tutulmayıb. Təhsil müddətində doktorantura proqramının tələblərini yerinə yetirməyən tələbələrin təqaüdləri dayandırıla bilər.

***- Doktorantura proqramına 6 nəfər uğurlu namizəd seçiləcək. Bu isə namizədlər arasında rəqabətin yüksək olacağından xəbər verir. Namizədin uğurlu hesab edilərək proqrama qəbul olunması üçün hansı göstərici və keyfiyyətlərinə xüsusi diqqət yetiriləcək?***

- Doktorantura proqramına 6 namizədin hüququn əsas sahələri - mülki hüquq, cinayət hüququ və administrativ hüquq üzrə seçilməsi hədəflənib. Bu baxımdan seçim prosesində əsas göstərici və keyfiyyətlərlə yanaşı, namizədlərin hüquq təhsilində əldə etdiyi göstəricilər, hüquqşünaslıq fəaliyyəti üzrə təcrübəsi və ya elmi-hüquqi tədqiqat sahəsində əldə etdiyi uğurlar, bu proqrama maraq göstərməsinin səbəbləri, təklif edilən elmi-tədqiqat mövzusunun əhəmiyyəti və aktuallığı, habelə tələb olunan dilləri bilməsi kimi bacarıqlar əsas meyar kimi götürüləcək.

***- Qəbul prosesi neçə mərhələdən ibarətdir və hansı formada aparılacaq? Namizədlərin proqrama qəbulla bağlı müsbət nəticələri nə vaxt açıqlanacaq?***

- Qəbul prosesi şəffaf, obyektiv və bərabərlik şəraitində aparılacaq. Bu mənada ADA Universitetinin Hüquq Proqramı və Martin Lüter Universitetinin Hüquq fakültəsinin professorlarından ibarət komitə formalaşdırılıb. Elanda göstərilən qaydalara müvafiq şəkildə sənədlərin elektron poçt vasitəsilə qəbulu başa çatdıqdan sonra komitə hər bir namizədin ərizəsini əhatəli şəkildə dəyərləndirəcək (I mərhələ) və uğurlu namizədlər müsahibə mərhələsinə (II mərhələ) dəvət ediləcəklər. Müsahibələr onlayn rejimdə təşkil ediləcək, ingilis və ya alman dilində aparılacaq. Komitə namizədlərin seçim prosesini iyul ayının sonundan gec olmayaraq başa çatdırmağı hədəfləyir. Bundan sonra müsahibə mərhələsindən uğurla keçmiş namizədlər oktyabr ayınadək ADA Universitetində təşkil olunacaq doktorantura proqramına ilkin hazırlıq və alman dili kurslarına cəlb ediləcəklər. Eyni məzmunlu hazırlıq kursları oktyabr - aprel ayları ərəfəsində MLU-da təşkil ediləcək. Aprel ayından etibarən doktorant tələbələr MLU-da elmi-hüquqi tədqiqat sahələrinə uyğun fənlərdə iştirak edəcəklər.

***- Hüquq üzrə Doktorantura Proqramı "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilir. Bu barədə əlavə məlumat vermənizi xahiş edirik.***

- Ölkəmizdə milli təhsilin müasir təhsil standartlarına uyğunlaşdırılmasını təmin etmək, habelə qabaqcıl bilik və təcrübənin Azərbaycanın dövlət və özəl sahələrində tətbiq edilməsinə nail olmaq məqsədilə yüzlərlə gənc azərbaycanlının nüfuzlu universitetlərdə təhsil alması maliyyələşdirilib. Bu strategiyanın tərkib hissəsi olaraq müvafiq Dövlət Proqramı doktorantura səviyyəsi üzrə təhsil proqramlarının təşkil edilməsi üçün geniş imkanlar təklif edir. "Təhsil haqqında" qanunun 5.4-cü maddəsinə, habelə Dövlət Proqramının mahiyyətinə müvafiq olaraq, komitə doktorantura proqramına ən layiqli namizədlərin seçilməsini qarşısına məqsəd qoyub.

***- Sözügedən doktorantura proqramı məzunlarının əldə edəcəkləri əsas üstünlük və nailiyyətlər hansılar olacaq?***

- Əvvəla, onu vurğulamaq lazımdır ki, doktorantura proqramını bitirmiş şəxslər Martin Lüter Universitetinin hüquq üzrə fəlsəfə diplomunu əldə edəcəklər. Bundan başqa, doktorant tələbələr geniş mənada alman hüquq sistemini müqayisəli şəkildə öyrənmək, alman hüquq təhsilinin məqsədlərini qavramaq və müvafiq hüquq sahəsi üzrə ciddi elmi-hüquqi tədqiqat apararaq, həmin sahənin incəlikləri ilə yaxından tanış olmaq imkanı qazanacaqlar. Başqa sözlə, doktorantura proqramı gənc hüquqşünas alim kimi formalaşmaq arzusunda olan şəxslər üçün təkrarsız fürsətdir. Bundan başqa, proqram elmi-hüquqi mühitin daha da zənginləşdirilməsinə, müxtəlif sahələr üzrə hüquq dərsliklərinin hazırlanmasına və ixtisaslaşmış tədqiqat mərkəzlərinin yaradılmasını hədəfləyib.

***- Alman təhsil sistemi ilə Azərbaycan təhsil sistemi arasında nəzəri və praktiki baxımdan özünəməxsus fərqlər mövcuddur. Tələbələrin bu fərqləri və alman hüquq sisteminin əsas keyfiyyətlərini dərindən öyrənməsi üçün proqramın kurikulumu və strukturu hansı formada qurulub?***

- Məlumdur ki, yerli hüquq təhsilimiz keçmiş sovet və rus hüquq təhsilindən əsaslı şəkildə bəhrələnib. Lakin sovet və rus hüquq təhsili özü-özlüyündə alman hüquq təhsili modelindən ciddi şəkildə təsirləndiyinə görə, Azərbaycan hüquq təhsili ilə alman hüquq təhsili modeli arasında fərqliliklərdən əlavə, bəzi struktural və pedaqoji oxşarlıqlar da müşahidə etmək mümkündür. Bundan əlavə, Azərbaycan Respublikasında bir neçə əhəmiyyətli qanun layihələri alman qanunvericiliyi əsasında və ya alman hüquqşünas ekspertlərin birbaşa iştirakı ilə hazırlanıb. Bunların arasında "İnzibati İcraat haqqında Qanun", "İnzibati Prosesual Məcəllə"', "Şəhərsalma və Tikinti Məcəlləsi", "Mülki Məcəllə", "Mülki Prosesual Məcəllə", "Beynəlxalq Xüsusi Hüquq haqqında Qanun" və "Beynəlxalq Arbitraj haqqında Qanun" kimi əhəmiyyətli normativ-hüquqi aktları misal göstərmək olar. Bu prosesin davamı olaraq bir çox azərbaycanlı hüquqşünaslar Almaniyada hüquq təhsili alaraq hazırda ölkəmizdə dövlət və özəl sektorda fəaliyyət göstərirlər. Bu baxımdan, alman hüquq təhsilinin Azərbaycanın hüquq təhsili və hüquq sisteminin formalaşdırılmasındakı rolu olduqca əhəmiyyətli hala çevrilməkdədir və bu təsir növbəti illərdə getdikcə daha da artacaq. Lakin bütün bu inkişaf perspektivlərini nəzərə alaraq qeyd etmək lazımdır ki, yerli hüquq təhsilində hər hansı bir hüquq təhsili modelinin "copy & paste" formatında tətbiqinə yol vermək olmaz. Bu səbəbdən milli hüquq təhsili və hüquq sisteminin formalaşdırılması məqsədilə müqayisəli hüququ, xüsusilə də alman, fransız və ingilis hüquq sistemlərini dərindən bilən alim hüquqşünasların yetişdirilməsinə böyük ehtiyac var.

Bir çox Avropa universitetlərinin təcrübəsində mövcud olduğu kimi, müvafiq doktorantura proqramında da kurikulum doktorant tələbə ilə elmi rəhbər arasında razılaşma əsasında formalaşdırılır. Lakin bu qaydada müstəqil yanaşmanın olmasına baxmayaraq, doktorantura proqramının kurikulumu ümumi şəkildə aşağıdakı formada strukturlaşdırılıb:

- 1-ci mərhələ doktorantura pilləsinə hazırlığı və alman dilinin öyrədilməsinin təkmilləşdirilməsini nəzərdə tutur;
- 2-ci mərhələ tələbələrin müvafiq hüquq fənlərində iştirak edərək sahə üzrə biliklərinin zənginləşdirilməsini əhatə edir;
- 3-cü mərhələ elmi-hüquqi tədqiqatın aparılması və doktorluq dissertasiyasının ilkin variantının hazırlanması ilə başa çatır;
- 4-cü mərhələ doktorluq dissertasiyasının son variantının hazırlanmasını və müdafiə üçün təqdim edilməsini nəzərdə tutur.

***- Bilirik ki, doktorant tələbələr proqram ərzində həm ADA, həm də MLU-nun professor-müəllim heyətinin akademik dəstəyindən yararlanacaqlar. Doktorantura tezisinin müdafiəsində hansı universiteti təmsil edən elmi-rəhbərin rəyi əsas götürüləcək?***

- Doktorluq dissertasiyası MLU-da əvvəlcədən razılaşdırılmış professorların elmi rəhbərliyi altında yazılmalı və müvafiq daxili qaydalar çərçivəsində MLU-da müdafiə olunmalıdır. ADA Universitetinin professor-müəllim heyəti müxtəlif metodoloji və elmi məsləhətlər verəcək, həmçinin doktorant tələbələrin elmi-hüquqi tədqiqat mövzusundan asılı olaraq, yardımçı elmi-rəhbər kimi çıxış edə biləcəklər.

***- Proqram məzunları Azərbaycana qayıtdıqdan sonra əldə etdikləri bilik və təcrübələri məhz ADA Universitetində tətbiq edəcəklər?***

- Əvvəldə qeyd etdiyim kimi, Hüquq üzrə Doktorantura Proqramının əsas məqsədi ADA Hüquq Proqramının professor-müəllim heyətinin fəaliyyətinin daha da gücləndirilməsinə xidmət etməkdir. Lakin vurğulamaq lazımdır ki, Azərbaycana qayıtdıqdan sonra doktorant tələbələr üzərində ADA Universitetində çalışmaq kimi öhdəlik qoyulmayıb. Bu seçim - ADA Universitetinin professor-müəllim heyətinin tərkib hissəsi olmaq istəyi tərəflərin qarşılıqlı tələbləri və gözləntiləri əsasında təşkil ediləcək.

***- Pandemiya dövründə onlayn və ənənəvi təlim-tədrisə sürətli keçidin şahidi olduq. Hüquq üzrə doktorantura proqramında onlayn komponentlərdən istifadə ediləcəkmi?***

- Ümumiyyətlə, onlayn vasitələrdən istifadə ADA Universitetində təklif olunan tədris prosesinin təməlində duran əsas elementlərdən biridir. Təbii ki, bu proqramda da müxtəlif onlayn seminarlar, vorkşoplar və qonaq mütəxəssislərin təqdimatlarının təşkili nəzərdə tutulur.

***- ADA Universitetində mütəmadi olaraq müxtəlif proqramlarla bağlı onlayn Məlumat Sessiyaları və vebinarlar keçirilir. Yaxın gələcəkdə hüquq üzrə doktorantura proqramına uyğun MLU ilə birgə Məlumat Sessiya və ya vebinar planlaşdırılırmı?***

- Hələ ki, belə bir vebinarın təşkili nəzərdə tutulmayıb. Lakin maraqlı şəxslər elanda göstərilmiş müvafiq e-mail və telefon nömrələri vasitəsilə əlaqə saxlayıb suallarını ünvanlaya bilərlər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



# "Qara qızıl"ın üzünü ağardan neftçi

**Bu ömür yolu başlanğıcını dağlardan götürmüşdü. Başına doladığı dumandan çalmaya, sinəsindən şaqqıltıyla kükrəyən selinə heyranlıqla baxdığı dağlardan. İndi yalnız yuxularda bir gecəlik mehman ola bildiyi dağlardan...**

Və bu ömür yolu coşan dalğaların, ucsuz-bucaqsız neft qoxulu ümmanların qoynunda uzun bir yol qət etmişdi...

İstəklərinin, arzularının, ümidlərinin arxasınca...

Yarım əsrdən artıq bir zaman kəsiyinə çox müvəffəqiyyətlər sığdırmışdı. Zəhməti, əzmkarlığı sayəsində indi ömrünün 70-ci zirvəsindən baxanda da nailiyyətləri, imza atdığı uğurlar, qazandığı mükafatlar da elə dağ kimi sıralanmışdı.

Bəs nə idi bu uğur çeşməsinin sularını bulanıq göstərən? Alnında düyünə, qəlbində kövrəkliyə, ürəyində közə çevrilən yurd həsrəti?!

Nə idi həm ölkəmizdə, həm də vətənimizin hüdudlarından xeyli uzaqlarda belə şöhrət qazanan neftçimiz Tofiq Məhəmmədovun ürəyində qübara çevrilən nisgil?!

### Dağlar oğlu neçə-neçə dənizləri fəth edir

Hələ soydaşlarımızın doğma torpaqlarımızdan didərgin düşməyən xoşbəxt günlərinin birində, 1950-ci ilin 22 iyununda indiki Ermənistanın Qaraqoyunlu mahalının Əmirxeyir kəndində dünyaya göz açmışdı Tofiq Həzrətqulu oğlu Məhəmmədov.

Uşaqlığı zirvələri ağ örpəkli dağlarda, qartalların qıy vurduğu qayalarda, çiçəklərdən xalı sərilmiş çəmənliklərdə keçmişdi. Təbiət vurğunu olmuşdu və elə o vaxtdan qəlbində onun sirlərinə daha dərindən vaqif olmaq arzusu baş qaldırmışdı.

Orta məktəbi bitirdikdən sonra, 1967-ci ildə birbaşa üz tutduğu ünvan Azərbaycan Neft-Kimya İnstitutunun Geoloji kəşfiyyat fakültəsi oldu.

Seçdiyi ixtisasa olan dərin sevgi və bu sahənin incəliklərinə bələd olmaq üçün əzmlə çalışması sayəsində 1972-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdi.

O zaman diplom rəhbəri, akademik Şəfayət Mehdiyevin, "Mən inanıram ki, dağlar oğlu neçə-neçə dənizləri fəth edəcək və yaxşı neftçi olacaq" sözlərini həyat amalına çevirərək, çox keçmədən gerçəyə, reallığa çevirmişdi...

### Xəzərin ram edilməsi

Bir an öncə sevdiyi peşəsi ilə məşğul olmağa tələsən Tofiq Məhəmmədov məzun olduğu ildən etibarən Özbəkistan SSR-də Neft-qaz kəşfiyyatı birliyində çalışmağa başlayır. Zəhmətsevərliyi, işinə olan sevgisi, ən əsası da bilik və bacarığı sayəsində əvvəlcə operator, geoloq, böyük geoloq, daha sonra isə sahə rəisi vəzifəsinədək yüksəlməyi bacarır.

Beş il müddətində həmin müəssisədə çalışıb, bir sıra perspektivli neft yataqlarının aşkara çıxarılması və mənimsənilməsində əvəzsiz xidmətlər göstərir. Çəkdiyi zəhmət müqabilində o, Özbəkistanın orden və medalları ilə təltif olunur.

1979-cu ildə Özbəkistanın Neft-Qaz Axtarışı Birliyinin kəşfiyyat ekspedisiyasının rəhbəri vəzifəsinə dəvət alsa da, bundan imtina edərək Azərbaycana dönür. Elə həmin il Xəzər dənizində açıq neft-qaz fontanlarının qarşısının alınması və ləğv edilməsi üzrə hərbiləşdirilmiş hissədə bölmə rəisi vəzifəsinə təyin olunur. Ömrünün doqquz ilini həmin müəssisə ilə bağlayan T.Məhəmmədov fəaliyyət göstərdiyi müddətdə Xəzər dənizində yerləşən neft-qaz yataqlarının təhlükəsiz istismarı, habelə texnoloji proseslərin düzgün aparılması sahəsində yüksək bacarıq və elmi təcrübə nümayiş etdirir. Buna görə də Azərbaycanın keçmiş Neft-Qaz Sənayesi Nazirliyi yüksəkixtisaslı və təcrübəli kadr olduğunu nəzərə alaraq, Tofiq Məhəmmədovu 1988-ci ildə Vyetnam Sosialist Respublikasına göndərmək qərarına gəlir.

### Cənubi Çin dənizinə səyahət

Beləliklə, təcrübəli neftçi vətəndən çox-çox uzaqlarda sevdiyi peşəsini icra etməyə, həm də bu sahə üzrə gənc kadrlar yetişdirməyə başlayır.

1988-1992-ci illər ərzində "Vyetsovpetrol" MMC-də şöbə rəisi vəzifəsində işləyən T.Məhəmmədov, 1992-1995-ci illərdə SOCAR-ın Liman nəzarəti və hidrotexniki qurğuların təhlükəsiz istismarı idarəsində baş mühəndis vəzifəsində çalışır. 1995-2008-ci illərdə yenidən Vyetnam Sosialist Respublikasına ezam olunaraq orada "Vyetsovpetrol" MMC və "Petrovyetnam" şirkətində baş mühəndisin müavini və təhlükəsizlik idarəsinin rəisi vəzifələrində işləyir.

Cənubi Çin dənizində bir sıra neft-qaz yataqlarının istismarındakı fəaliyyətinə görə T.Məhəmmədov 1991-ci ildə Vyetnam Sosialist Respublikasının "Dostluq" medal və ordeni ilə, 2001-ci ildə Dövlət mükafatı, 2010-cu ildə isə "Əmək" ordeni ilə təltif olunub.

### Alın təri ilə qazanılan uğur

Ömrünün yarıdan çoxunu neft sənayesinə həsr edən zəhmətkeş neftçi 2009-cu ildən "SOCAR-AQŞ"-də baş direktorun müşaviri işləyir, dərin bilik və təcrübəsini bu sahənin uğurlu inkişafına sərf edir.

Peşəkar neftçinin əməyi ölkəmizdə də yüksək qiymətləndirilib, 2016-cı ildə T.Məhəmmədov Prezident İlham Əliyev tərəfindən "Tərəqqi" medalına layiq görülüb. Aldığı mükafatın sevincini isə bu sözlərlə ifadə edib: "Bu xəbəri eşidəndə həm sevindim, həm də qürur hissi keçirdim. Bu keçən illər ərzində "qara qızıl"ımız həm mənim, həm də xalqımızın üzünü ağartdı. Ona görə də aldığım mükafatın sevincini yaşamaqla bərabər, mənə göstərilən etimadın məsuliyyətini də dərk edirəm. Hesab edirəm ki, bu uğur həm də uzun müddətdir çalışdığım "SOCAR-AQŞ" kollektivinin də uğurudur".

### Xoşbəxtliyin şah zirvəsi

Bu dünyada hərənin öz alın yazısı var deyirlər. Qismətinə nə yazılıbsa, onu yaşayırsan, o cığırla irəliləyirsən...

Amma o da var ki, Tanrı bu tale yoluna naxış salmağı, onu zinətləndirməyi, şərəfli etməyi də hər kəsin öz ixtiyarına verib...

Nə xoşbəxtdir o kəslər ki, vəfasız dünyanın insanoğluna mükafat olaraq bəxş etdiyi bu töhfəyə əməli, işi, zəhməti sayəsində layiq olurlar...

Bugünündən dünəninə boylananda tarix səhifələrində öz izlərini görməyi, gələcəyə ötürülən salnamələrə öz imzalarını həkk etməyi bacarırlar...

Peşəkar neftçi Tofiq Məhəmmədov da belə bəxtinə uğur yazılan insanlardandır.

Amma xoşbəxtliyin zirvəsinə, şah nöqtəsinə illərdir nisgilini, həsrətini çəkdiyi ana yurduna, Qaraqoyunlu mahalının, Əmirxeyirin hər daşını torpağını, cığırını öz nəvələrinə bircə-bircə göstərəcəyi, tanıdacağı an çatacaq...

Bəli, əminik ki, o an tezliklə yetişəcək və Tofiq müəllim də növbəti ad günü təbriklərini, peşə uğurlarına verilən mükafatları, təltifləri də məhz o ellərdə, o yurdlarda qəbul edəcək...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Baş Prokurorluq: "Şirvan Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsi həbs edilib"

Şirvan Şəhər İcra Hakimiyyətinin mənzil təsərrüfatı idarəsinin müdiri Eyyub Gülməmmədovun qanunsuz hərəkətləri barədə vətəndaşın müraciəti əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciət üzrə Baş İdarənin əməkdaşları tərəfindən keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Eyyub Gülməmmədov xidməti vəzifəsinin icrası ilə əlaqədar idarənin balansında olan Şirvan şəhəri Nizami küçəsində yerləşən yataqxananın 35 kvadratmetr sahəsi olan iki otaqdan ibarət hissəsini vətəndaşın adına sənədləşdirilməsi müqabilində sonuncudan 3000 manat məbləğində pulu iyunun 22-də özünə məxsus avtomobildə rüşvət kimi alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb.

Eyyub Gülməmmədov tərəfindən bu cinayət əməlinin törədilməsinə şübhələr üçün əsaslar müəyyənləşdirildiyindən o, Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə dörd ay müddətə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə həmin qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 29 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı silahlardan da istifadə etməklə atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.



Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Ağdam rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.





# Mədəniyyət





● Adil İsgəndərov - 110

**“Kaş Tanrı mənə bir az da ömür verəydi, onda mən bilərdim necə yaşayardım”. Bu dünya ilə vida anında Kamilovun son peşmanlığı... “Qanun naminə” filmində Adil İsgəndərov canlandırdığı obrazın dilindən deyir...**



# Sənət naminə...




Həyat insanı kürə kimi öz səhvlərində, həqiqətlərində, yanlışlıqlarında, düzlüklərində “bişirir”. Doğrudur, Adil İsgəndərov ekran ömrü verdiyi Kamilova nə xarakteri, nə həyata baxışı, nə də həyat tərzi ilə bənzəyirdi. “Qanun naminə”dəki qəhrəmanı xeyirxahlıq etmək, ədalətli olmaq, düzgün yaşamaq fürsətini fövtə verdiyi üçün son anlarında heyifsilənirdi. Adil İsgəndərov isə ömrünün böyük hissəsini gözəl əməllərə, xeyirli işlərə həsr etdi, yıxılanın əlindən tutdu, düz yola üz tutanlara istiqamət verdi. Bu dünyanın heç bir neməti - var-dövləti, şöhrəti, ad-sanı onu doğru bildiyi, inandığı yoldan ayıra bilmədi. Ancaq Adil İsgəndərovun kinodakı qəhrəmanı kimi, həyatdan aldığı dərsləri də böyük idi...

## Adil İsgəndərov məktəbi

O, bəy oğlu idi. 1910-cu il mayın 5-də qədim Gəncədə dünyaya göz açıb. Atası Rza bəy Gəncənin hörmətli bəylərindən sayılıb. Elə ana tərəfdən də bəy nəslindən olub.

Rza bəy Sovet hökumətinin gəlişini, bəylərin qara günlərini görməyib. Oğlu Adil üç yaşında ikən o, vəfat edib.

Əsl soyadlarını - İsgəndərbəylini sonralar Sovet hökumətinin təzyiqləri ilə üzləşməmək üçün İsgəndərova dəyişməli olublar.

Adil İsgəndərov kiçik yaşlarından teatra maraq göstərib. On yaşında Gəncədəki pioner evində özfəaliyyət dərnəyinə gedib. On üç yaşında “Qaçaq Kərəm” tamaşasını qurub. Kərəm rolunu da özü ifa edib. Elə bu tamaşa ilə də yaradıcı adamların diqqətini cəlb edib. Onu Bakıya gətiriblər. Bakı Teatr Texnikumunda əla qiymətlərlə oxuyub. Təhsilini davam etdirmək üçün Moskvaya gedib. A.Lunaçarski adına Moskva Teatr Sənəti İnstitutunu bitirib. Moskva Bədaye və Vaxtanqov teatrlarında təcrübə keçib. 1936-cı ildə Akademik Milli Dram Teatrına gəlib. Çox keçməyib ki, teatrın baş rejissoru təyin edilib. Sonralar isə Akademik Milli Dram Teatrının direktoru olub. İyirmi beş ilə yaxın burada fəaliyyət göstərib, yeni tamaşalar səhnələşdirib.

İlk rejissorluq işi 1936-cı ildə “Polad qartal” tamaşası olub. Bir-birinin ardınca milli teatrın səhnəsində “Həyat”, “Vaqif”, “Xanlar”, “Fərhad və Şirin”, “Aydın”, “Şərqin səhəri”, “Otello”, “Cavanşir” və başqa əsərlərə quruluş verib. “Otello” tamaşasına Moskvada Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə baxaraq heyran qalan ingilislər onu lentə alıblar.

Akademik Milli Dram Teatrındakı uzun illik fəaliyyəti o qədər səmərəli, parlaq olub ki, bu sənət məbədini həmin dövrdə “İsgəndərovun teatrı” adlandırıblar.

Onun rejissor təqdimatı hər zaman uğurlu olub. Bütün tamaşalarının teatrsevərlərin ürəyincə olmasının bir səbəbi də böyüklü-kiçikli bütün rollara aktyor seçimini düzgün etməsi idi.

Azərbaycan teatrına neçə-neçə istedadlı rejissor və aktyorun gəlməsində Adil İsgəndərovun misilsiz xidmətləri olub. O, səhhətini, sağlamlığını çox sevdiyi teatrın yolunda fəda edib.

Milli teatrın yeni binası akustikasız olduğundan ora köçürülməsinə etiraz edib. Söylədiyi doğruları nəinki qəbul etməyiblər, buna görə sənətkarı incidiblər. Əslində, incikliyinin tək səbəbi də bu olmayıb. Adil İsgəndərov haqsızlıqlara boyun əyməyib. Və çox sevdiyi teatrdan gedib...

Sənətkarın növbəti sənət ünvanı Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası olub. 1966-cı ildən “Azərbaycanfilm”ə rəhbərlik edib. O qədər iş-gücün arasında bircə filmə - “Əhməd haradadır?”a quruluş verib. Ancaq bu müddətdə tamaşaçılar onu həm də istedadlı kinoaktyor kimi tanıyıb, seviblər. Adil İsgəndərov filmlərdə müxtəlif səpkili rollar yaradıb. Tamaşaçılar onun ifasında “Axırıncı aşırım”dakı Kərbəlayı İsmayılı, “Qanun naminə”dəki Kamilovu, “Uzaq sahillərdə”ki alman məmurunu və başqa rollarını bəyənərək izləyiblər.

“Axırıncı aşırım” filmi Tbilisidə nümayiş olunanda Həsən Məmmədov Şadlinski, o isə Kərbəlayı İsmayıl rolunun ifaçısı kimi mükafata layiq görülüb. Adil İsgəndərov öz mükafatından imtina edərək, onun Qəmlonu canlandıran Məlik Dadaşova verilməsini istəyib.

## Sənəti və şəxsiyyəti ilə örnək insan

Adil İsgəndərovun təşkilatçılıq bacarığı yüksək olub. O, bir yerdə çalışdığı aktyorların yalnız yaradıcılığı ilə maraqlanmayıb. Onların sosial vəziyyətinə, problemlərinə daim diqqətlə yanaşıb. Onun sayəsində neçə-neçə aktyor ev-eşik sahibi olub.

Onu sevdirən həm də sənəti şəxsi münasibətlərin fövqündə tutması idi. Teatrda da, kinoda da belə olub...

Xalq artisti Rza Əfqanlıya aralarında yaranan narazılığa baxmayaraq Hüseyn Cavidin “Şeyx Sənan” əsərindəki baş rolu həvalə edib. “Otello” tamaşasında baş rolu Ələsgər Ələkbərova verəndə isə bu iki sənətkarın münasibəti çox gərgin olub. Adil İsgəndərov “Nəsimi” filmində Teymurləngə çəkilməkdən imtina edərkən bu rolun Yusif Vəliyevin ifasında mükəmməl olacağını əsas gətirib. “Dəli Kür” filmində Cahandar ağa roluna onu çəkmək istəyən rejissor Hüseyn Seyidzadəyə Ələddin Abbasovu məsləhət görüb. Çünki Adil İsgəndərov sənətkar mövqeyini şəxsi münasibətlərindən üstün tutub. O, özünü deyil, sənəti, Azərbaycan kinosunu düşünüb.

Adil İsgəndərov xoşbəxt sənətkar olub. Sağlığında da onun şöhrəti yalnız yüksək titulları, fəxri adları ilə ölçülməyib. Adil İsgəndərov böyük nüfuz, hörmət sahibi, şəxsiyyəti və sənəti ilə nümunə olub.

Çoxları onun məsləhəti və köməyi ilə sənətə gəlib, ilk dəfə filmə çəkilib. O dövrdə üzə çıxan bütün istedadlı aktyorlar Adil İsgəndərovun tapıntısı idi.

O, Azərbaycanda çəkilən filmlərə kənardan aktyor dəvət edilməsinin əleyhinə olub. Öz aktyorlarımızı tanıdıb. Sübut edib ki, bizdə də bacarıqlı aktyorlar, rejissorlar var.

Adil İsgəndərov yaddaşlarda ötkəm insan kimi qalıb. Özündən vəzifəcə böyüklərin qarşısında boynubükük dayanmaq, sözünü danmaq ona yad olub. Kinostudiyaya rəhbərlik etdiyi vaxtlarda da işlərinə müdaxilə ediləndə, yersiz göstərişlər veriləndə çox əsəbiləşərmiş. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi Kozlov zəng edərək bir nəfərin filmdə çəkilməsini, başqa birinin isə rejissor köməkçisi qoyulmasını istəyəndə də sərt davranıb. “Yoldaş Kozlov, bilirsiniz mikrorayonda su gəlmir? Siz yaxşı olar ki, su ilə məşğul olun, mən kino ilə məşğul olaram” deyərək telefonun dəstəyini asıb.

Böyük sənətkar 1978-ci ilin sentyabrında həyatla vidalaşıb. Həmin gün Sovet hökumətinin rəhbəri L.İ.Brejnev Bakıya növbəti rəsmi səfərə gəlib. Adil İsgəndərov bəzilərinin yazdığı kimi, axşamın qaranlığında gizlincə torpağa tapşırılmayıb. Ancaq həmin gün dövrün tələblərinə uyğun olaraq, rəhbərin gəlişi münasibətilə Bakı bayram əhvali-ruhiyyəsinə bürünüb.

Azərbaycanın görkəmli teatr və kino rejissoru, tanınmış aktyoru, Azərbaycanın Xalq artisti, Zaqafqaziyadan ilk SSRİ Xalq artisti Adil İsgəndərovla vida mərasimi Aktyor evində keçirilib. Və sənətkarı 2-ci Fəxri xiyabanda dəfn etməli olublar.

Zaman öz sözünü deyib. Adil İsgəndərov xoş əməlləri ilə yaddaşlardan-yaddaşlara köçüb. Sənət naminə gördüyü işlər isə ona Azərbaycan teatrının, Azərbaycan kinosunun səhifələrində əbədi yer qazandırıb.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

● Xəbərlər

# “Səs Uşaqlar”ın final mərhələsinin vaxtı uzadıldı

**Koronavirus pandemiyasının ölkədə tüğyan etməsi ilə əlaqədar bir sıra layihələr onlayn formatına keçirilib. Belə layihələrdən biri də yüzlərlə tamaşaçı auditoriyası olan məşhur “Səs Uşaqlar” müsabiqəsidir.**




Böyük izləyici kütləsi ilə reallaşan müsabiqənin final mərhələsinin vaxtı Operativ Qərargahın verdiyi qərara əsasən karantin qaydalarına uyğun olaraq dəyişdirilib. Layihənin Azərbaycan üzrə yayım hüququnun müəllifi İTV və layihənin müəllifi “Talpa Global B.V” şirkətləri arasında aparılan danışıqlara əsasən “Səs Uşaqlar”ın final mərhələsinin vaxtı ilin sonuna qədər uzadılıb.

Bundan əlavə, İTV həm də paralel olaraq böyüklər üçün “Səs Azərbaycan” layihəsinin qeydiyyatına start verib. Böyüklərin qatılacağı seçim turunun “Səs Uşaqlar”a maneəsi yoxdur. Hazırda böyüklər üçün ilkin mərhələ seçim turudur ki, bu da video formatında həyata keçirilir. Növbəti mərhələlərdə isə müsabiqənin yaradıcı qrupu tərəfindən həm ustadlar, həm də layihənin aparıcısı müəyyən ediləcək.

# “Eurovision” musiqi yarışmasının 2021-ci ildə keçiriləcəyi tarixlər açıqlanıb

**Bu barədə müsabiqənin rəsmi saytında məlumat yerləşdirilib. Beləliklə, gələn il Rotterdamda mahnı müsabiqəsinin yarımfinalları mayın 18 və 20-də, finalı isə mayın 22-də keçiriləcək.**




Qaydaya görə, builki mahnılar 2021-ci ildə təqdim olunmayacaq. Müsabiqəyə gedəcək ifaçının kimliyinə yayımçı özü qərar verəcək.

Xatırladaq ki, mart ayında müsabiqənin təşkilatçıları Niderlandda keçirilməsi nəzərdə tutulan yarışmanın koronavirus pandemiyası səbəbindən ləğv olunduğunu elan edib. Mayın 16-da isə müxtəlif ölkələrin ifaçılarının iştirakı ilə “Europe Shine a Light” adlı musiqi şousu keçirilib.

# Əqli Mülkiyyət Agentliyi “Küçələrə su səpmişəm”in fars mahnısı kimi təqdim olunmasını təkzib edib

**“Küçələrə su səpmişəm” Azərbaycan xalq mahnısının fars mahnısı kimi verilməsi ilə bağlı məlumatlar yayıldıqdan sonra bu məsələ Əqli Mülkiyyət Agentliyi tərəfindən nəzarətə götürülüb və müvafiq araşdırma aparılıb.**



Müəyyən edilib ki, bir sıra “YouTube”, o cümlədən “chekhabar1234” və “Persian Song” adlı kanallarda iranlı musiqiçi Fereydoun Asraeinin ifasında “Dooset daram” adlı mahnı yerləşdirilib. Onun Azərbaycan xalq mahnısı olması barədə məlumat qeyd edilməyib.

Agentlik bununla bağlı bildirib ki, qeyd edilən mahnının musiqisi Azərbaycan xalq mahnısı “Küçələrə su səpmişəm”in musiqisidir. Burada mahnının sözləri dəyişdirilmiş və musiqinin mənşəyi barədə məlumat göstərilməmişdir.

Mahnı eyni zamanda 1954-cü ildə çəkilmiş “Doğma xalqıma” adlı filmdə səsləndirilib.

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 1963-cü il 12 iyun tarixli ərizəsi əsasında onun tərəfindən “Küçələrə su səpmişəm” xalq mahnısının yenidən işlənmiş variantı Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan şöbəsində (indiki Əqli Mülkiyyət Agentliyində) kataloqa daxil edilib və qeydə alınıb. Mahnının yenidən işlənmiş, azərbaycanlı müğənni Rəşid Behbudov tərəfindən 1963-cü ildə ifa olunmuş variantı “YouTube” kanalına yüklənib.

“Küçələrə su səpmişəm” xalq mahnısı həmçinin Azərbaycanın məşhur ifaçılarından Bülbül, Şövkət Ələkbərova və başqaları tərəfindən də səsləndirilib, maddi daşıyıcılara yazılaraq “YouTube” səhifələrinə yüklənib.

***Hazırladı:***
***M.NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

● Maddi-mədəni sərvətimiz

# Daha bir xalça sexi açılıb

Bu, cəbhə bölgəsi olan Tərtərdə xalq sənətinə qayğının ifadəsidir



**Respublikamızda xalçaçılıq tətbiqi sənət növünün ən qədim sahələrindən biridir. Azərbaycanda xalça toxuculuğu Tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlib. Onlar boyaların tükənməz zənginliyi, naxışların bənzərsizliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir. Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada tanınır.**

Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar və imzaladığı sərəncamlar bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısı “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında da iştirak edib. Burada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və əsas üstünlük orijinal Qarabağ xalça çeşnilərinə veriləcəkdir.

Dövlət başçısının sərəncamlarına uyğun olaraq, yaradılması nəzərdə tutulmuş 31 xalça müəssisəsindən 13-ü artıq istifadəyə verilib, 8-i isə fəaliyyətə hazırdır. Daha 10 fabrikin tikintisi layihələndirilir. Bundan başqa, yunəyirici-boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində mühüm işlər görülür.

Filialda 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub və hazırda 85 nəfər, o cümlədən 71 nəfər toxucu və 14 nəfər inzibati-təsərrüfat işçisi işlə təmin edilib.

● Bakı funikulyoru - 60

# “Dənizdən-dağa” qatarla səyahət...

## “Bir dön bizim Bakıya bax...”: Qız qalası, funikulyor, “Alov qüllələri”...

**Bakının hüsnünə yaraşan gözəllik haqqında zaman-zaman yazılıb. Bir vaxtlar neft Bakısı kimi xatırlanan paytaxt bu gün müasirliyi ilə Avropanın bir çox mədəniyyət mərkəzlərini geridə qoyub, sabaha Qız qalası, “Alov qüllələri”, həm də funikulyorundan baxır.**





Şəhər qədim tarixi abidələri ilə yanaşı, ötən əsrin ortalarında tikilən bir sıra mədəniyyət və xidmət obyektləri ilə də tanınıb. Metro kimi funikulyor da paytaxt sakinlərinin və əcnəbi qonaqların rahatlığını təmin edib.

Ötən əsrin 60-cı illərində Bakının qurulub-tikilməsində misilsiz xidmətlər göstərmiş görkəmli memar, ictimai xadim Əliş Ləmbəranskinin bu sahədəki fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Paytaxt Bakıda tarixləri və mədəniyyətləri birləşdirən belə inkişaf göstəricilərindən biri də funikulyor oldu. Bu nəqliyyat növünün Bakıda yaradılması onun sakinlərinin dəniz sahilindən Dağüstü parka rahat, həm də tez çatmalarında mühüm rol oynadı. Fəaliyyətə başlamasından ötən 60 il ərzində milyonlarla sərnişinin rahat, təhlükəsiz mənzilbaşına çatdırılmasında Bakı funikulyorunun xidməti misilsiz olub.

Ötən müddət ərzində funikulyorun stansiyalarında və vaqonlarında profilaktik işlər görülüb, istismar müddəti bitən akkumulyatorlar yeniləri ilə əvəz olunub, texniki təhlükəsizlik qaydalarının tələblərinə uyğun vaqon və digər avadanlıqların diaqnostikası və profilaktikası aparılıb. Funikulyor sərnişinlərin təhlükəsiz daşınması üçün tam hazır vəziyyətə gətirilib. Texniki problemləri aradan qaldırmaq üçün tələb olunan avadanlıq xaricdən gətirilib. İşçilər yeni geyimlərlə təmin olunublar.

## 60-nı yelə verməyən “qocaman” nəqliyyat

Konkretləşdirsək, şəhərimizdə funikulyor 1960-cı il mayın 5-də istifadəyə verilib. Sovet dövründə Bakı funikulyorunun qatarları xüsusi sifarişlə Sankt-Peterburqda, avadanlıqlar isə Ukraynanın Xarkov şəhərində hazırlanıb paytaxtımıza gətirilib. Funikulyorda dəmiryol xəttinin uzunluğu 455 metr, vaqonların sayı isə 2 olub. Vaqonlar saniyədə 3 metr sürətlə hərəkət edərək, 3 dəqiqə ərzində bir stansiyadan digərinə çatmaq üçün bu yolu qət edib. Bəhram Gurun heykəli ilə Şəhidlər xiyabanı arasında lift rolunu icra edən funikulyorda “qatarlararası” interval 10 dəqiqə olub. Funikulyor saatda orta hesabla 300 sərnişin daşıyıb.

Bakı funikulyoru indiyədək 2001, 2007, 2012 və 2017-ci illərdə əsaslı şəkildə təmir edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən 2012-ci ildə Bakı funikulyorunda əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni vaqonlar alınıb, 2012-ci il mayın 23-də açılışı keçirilib. Yenidən istifadəyə verilən funikulyorun ilk sərnişinləri isə media nümayəndələri olublar.

Bir vaxtlar Xəzərin şəhərdəki sahilindən Dağüstü parka qalxmaq istəyənlər üçün fəaliyyət göstərən funikulyor yorğun sərnişinlər üçün göydəndüşmə idi. Üzüyuxarı dəmir relslərlə uzanan vaqona oturub, 500 metr hündürlüyü qalxıb-enmək uşaqlar kimi, böyüklərin də xoşuna gələrdi. Vaqonda 20-dən çox adam olardı. Eyni vaxtda vaqonlardan biri yuxarı qalxanda, o biri üzüaşağı enirdi. Ancaq günlərin birində, səksəninci illərin sonlarında bu maraqlı vaqonlar yuxarı dayanacaqda ilişib qaldılar. Funikulyorun yerləşdiyi ərazidə gözə dəyən olmadı. Üstünə iri hərflərlə “Gözləmə zalı” yazılmış binanın qapıları xeyli müddət bağlı qaldı. Üzüyuxarı qalxmaqda çətinlik çəkənlərin giley-güzarları da az olmadı: “...Funikulyor işləsəydi, mən də belə yorulmazdım...”

## Panoram-attraksion - ikivaqonluq “səyahət qatarı”nın sərnişinləri

Lakin 65 yaşlı şəhər sakini Sədrəddin Süleymanov ötənləri bir az da nisgilli xatirələrlə yada salıb deyir: “Əvvəllər bura Dağüstü park adlanırdı. 60-cı illərdən, mənim gənclik vaxtlarımdan danışıram. Sonra Kirovun heykəlinə görə adını dəyişdilər. Heç dilimizə yatmadı. Bakılılar eləcə Dağüstü deyirdilər. Rəqs meydançası vardı, gəlirdik, qızlarla rəqs edirdik. Funikulyorun da qiyməti 5 qəpik idi, zövq ala-ala çıxırdıq üzüyuxarı, buradan sahilə, gəmilərə, adamlara baxırdıq...”

...Bakı funikulyoru bu gün öz gözəlliyi və müasirliyi ilə Avropadakı “adaş”ları arasında ilk beşlikdə özünə yer alıb. Təsadüfi deyil ki, fərqli arxitekturası və memarlıq üslubu ilə seçilən bu gözəl nəqliyyat vasitəsi hər zaman diqqəti özünə cəlb edib. Funikulyor sadəcə nəqliyyat vasitəsi deyil, o, panoram-attraksion kimi də fəaliyyət göstərir. Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə burada gözləmə salonu da var.

Funikulyordan istifadə üçün öncə ödəniş kartı əldə etmək lazımdır. Ödəniş terminalı üç dildə (Azərbaycan, rus və ingilis) xidmət göstərir.

Əcnəbi turistlərin Bakı funikulyoru barədə fikirləri müxtəlif, həm də maraqlıdır. Sankt-Peterburqdan olan Andrey Mazanoviç Aliyev və həyat yoldaşı İnqa Aliyeva deyirlər ki, Bakının rəmzlərindən biri kimi, onun funikulyoru ilə Milli parkdan Dağüstü parka, yəni Şəhidlər xiyabanına qalxanda gözlərin qarşısında Xəzər dənizi gözəl bir panorama yaradır. Andrey Mazanoviç deyir: “Hələ siz son illər ucaldılan və bir-birindən gözəl, müasirliklə milliliyi sintezləşdirən “göydələnlər”ə baxasınız. Bakının dünənini görmüş əcnəbilər gözlərinə inanmaya bilər. Bu nədir? Əsrlərimi qabaqlayır Bakı?! Funikulyor sərfəli nəqliyyatdır: həm ucuz, həm də rahat. Kim ki, Bakıya gəlir, yəqin funikulyorla “dənizdən-dağa səyahət”i unutmur...”

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

*Vladimir Putin:*
## "Nasizmə sovet xalqı qalib gəlib"



"Nasizmə sovet xalqı qalib gəlib. Onlar Sovet İttifaqının bütün respublikalarından olan ən müxtəlif millətlərə məxsus insanlar idi".

Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Böyük Vətən müharibəsində Qələbənin 75 illik yubileyi münasibətilə iyunun 24-də Moskvada keçirilən hərbi paradda çıxışı zamanı söyləyib.

Rusiya Prezidenti deyib ki, həm ön cəbhədə, həm arxa cəbhədə, həm də partizan dəstələrində sovet xalqı birlikdə mərdliklə mübarizə aparıb. "Biz Böyük Vətən müharibəsində həlak olanların ruhu qarşısında baş əyirik. Sovet xalqı Avropanın azadlığı uğrunda əvəzsiz qurbanlar verib və biz bunu heç vaxt unutmamalıyıq", - deyə V.Putin vurğulayıb.

# Beynəlxalq aləm

## Taliblər təhlükəsizlik qüvvələrinə hücum edib



Əfqanıstanın şimal-qərbində yerləşən Badqis əyalətində "Taliban" hərəkatının hücumu nəticəsində təhlükəsizlik qüvvələrinin azı 10 əməkdaşı həlak olub.

Tolo News telekanalı xəbər verir ki, insident Murqab rayonunda baş verib və döyüş iki saatdan çox davam edib.

"Hücum nəticəsində yeddi desant və xüsusi təyinatlı polis dəstəsinin üç əməkdaşı öldürülüb, beş nəfər yaralanıb", - deyə Əfqanıstan parlamentinin deputatı Ziauddin Akazi bildirib.

Bu arada Əfqanıstanın şimalındakı Cövzcan vilayətində bomba partlaması nəticəsində azı altı nəfər həlak olub.

Əfqanıstanın Daxili İşlər Nazirliyinin (DİN) mətbuat katibi Tarik Arian hadisədə "Taliban" hərəkatını ittiham edib.

O, hadisənin Mərdiyan rayonunda baş verdiyini bildirib.

Əfqanıstanda sülh prosesinin başlamasına baxmayaraq "Taliban" hərəkatı ilə hökumət qüvvələri arasında qarşıdurma davam edir.

## Türkiyədə məscidlər tam fəaliyyətə başlayıb



Türkiyədə 3 aydan çox davam edən fasilədən sonra məscidlər tam fəaliyyətə başlayıb. Trend-in məlumatına görə, bunu ölkənin Din İşləri İdarəsinin rəhbəri Əli Ərbaş deyib.

O bildirib ki, məsciddə namaz qılanlar azı 1,5 metr məsafədə dayanmalı, maska taxmalı və məscidə daxil olarkən dezinfeksiya vasitələrindən istifadə etməlidir. Bu günədək məscidlərdə cümə və ikindi namazları qılınırdı. İyunun 24-dən etibarən məscidlər sübh, günorta və axşam namazları üçün də açılıb.

Xatırladaq ki, koronavirus pandemiyası ilə əlaqədar ölkədə məscidlərin fəaliyyəti martın 16-dan məhdudlaşdırılmışdı.

## Meksikada zəlzələ nəticəsində ölənlərin sayı artır



Meksikanın Oaxaka ştatının inzibati mərkəzi Oaxaka-de-Xuares şəhərində baş verən güclü zəlzələ nəticəsində ölənlərin sayı 6 nəfərə çatıb, 4 nəfər xəsarət alıb. Bu barədə Meksikanın İctimai Təhlükəsizlik və Vətəndaşların Müdafiəsi Nazirliyi məlumat verib.

Oaxaka ştatında baş vermiş 7,4 bal gücündə zəlzələ nəticəsində mənzil fonduna az ziyan dəyib. Son saatlarda 150-dən çox afterşok qeydə alınıb. Sunami təhlükəsi yoxdur.

Xəstələrin və işçilərin təxliyə edilməli olduğu Oaxakada bir neçə xəstəxananın ziyan çəkdiyi bildirilib. Hakimiyyət orqanları əhaliyə kömək etmək üçün silahlı qüvvələrin bölmələrini cəlb edib.

## İran Hind okeanında hərbi baza yaradacaq



İranın İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) Hind okeanında daimi hərbi baza yaradacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə SEPAH-ın hərbi dəniz qüvvələrinin komandanı, admiral Əlirza Təngsəri məlumat verib.

O bildirib ki, Hind okeanında bəzi dövlətlərin hərbi gəmiləri və dəniz quldurları İranın balıqçı və yük gəmilərinə təhlükə törədir. Bu səbəbdən də cari ilin sonunadək hərbi dəniz qüvvələrinin iştirakı ilə Hind okeanında daimi hərbi baza yaradılacaq. Bazanın əsas məqsədi balıqçı və yük gəmilərinin təhlükəsizliyini təmin etməkdir.

Admiralın sözlərinə görə, bu məsələ İranın Ali Rəhbəri ilə müzakirə olunub və razılaşdırılıb. Ali Rəhbər də iranlı balıqçıların və bu ölkəyə məxsus digər gəmilərin təhlükəsizliyinin təmin olunmasını istəyir və bu barədə göstəriş verib.

# Sabiq prezidentlər Paşinyana qarşı birləşirlər

### Erməni cəmiyyətində parçalanma genişlənir

Ermənistanın sabiq prezidenti Robert Koçaryan girov müqabilində azad edildikdən sonra bir tərəfdən müalicə alır, digər tərəfdən isə qızğın görüşlər keçirir.

Ermənistanın "Qraparak" nəşri yazır ki, o, əvvəlcə silahdaşları, komanda yoldaşları ilə görüşərək Ermənistanda yaranmış vəziyyəti müzakirə edib. Qəzet daha sonra yazır: "Komanda bu yaxınlarda fəaliyyət planını müzakirə edəcək. Onlar Ermənistanın siyasi həyatında necə iştirak edəcəklərinə qərar verməlidirlər. Koçaryan, həmçinin siyasi görüşlər keçirib və bir sıra müxalif xadimlərlə, keçmiş rəsmilərlə telefon danışıqları aparıb. Xüsusən, Robert Koçaryan - Serj Sarkisyan görüşü baş tutub".

Məlumata görə, sabiq prezidentlər ölkədəki mövcud vəziyyət və müxalifətin birləşməsi məsələsini müzakirə ediblər.

Onların digər qüvvələrlə birlikdə Paşinyana qarşı aktiv fəaliyyətə keçməsi gözlənilir. Bunu erməni politoloq Qrant Melik-Şahnazaryan da etiraf edib: "İndi məsuliyyətli xadimlərin və siyasi qüvvələrin hərəkətə keçmək vaxtıdır. "Mənim addımım" fraksiyasının üzvləri parlamentdə başlamış konstitusiya çevrilişini başa çatdırsalar, Ermənistanda nəinki məhkəmə hakimiyyəti, həmçinin ümumiyyətlə siyasət öləcək". Qeyd edilib ki, bu andan etibarən xilasın yeganə variantı kütləvi tədbirlər və etiraz aksiyaları olacaq: "Artıq siyasi və hüquqi yolla ölkədə diktatura sisteminin qurulmasına mane olmaq mümkün olmayacaq. Buna görə də indi məsuliyyətli siyasi qüvvələrin fəaliyyət göstərməsi lazımdır".

Erməni politoloq Robert Koçaryan - Serj Sarkisyan cütlüyünün mübarizədə yer alan əsas fiqurlar sırasında olmasını istisna etməyib. Hadisələrin gedişatı göstərir ki, əslində bu gün Ermənistanda inqilab başa çatmayıb və yeni fazaya daxil olur. Bu o fazadır ki, əksinqilab artıq özünə gəlməkdədir.

Prosesdə çoxsaylı qüvvələr sabiq hakimiyyət təmsilçilərinin yanında yer alır. Bura hakimlər də daxildir. Ermənistan Konstitusiya Məhkəməsinin hakimi Feliks Toxyan parlamentin ikinci və son oxunuşda qəbul etdiyi qanun layihəsi haqqında danışarkən buna toxunub: "Gecə yatıb, səhər oyanıb "siz artıq hakim deyilsiniz" söyləmək olmaz. Bilirsiniz ki, biz yaxşı şərtlərlə təqaüdə çıxmaqdan imtina etdik. Bir neçə ay sonra məsələni referenduma çıxarmaq üçün qərar verildi. Bir müddət əvvəl koronavirus geniş yayılmamışdı və referendum keçirilə bilərdi. Necə ki, Dağlıq Qarabağda "seçki" keçirildi. Ancaq bunu etmədilər. Mən bilmirəm, referendum keçirilmədən bir gündə konstitusiyanı necə dəyişmək olar. Bu, anormal bir prosesdir. Avropa Şurasının Venesiya komissiyası da bu prosesi tənqid edib. Konstitusiya Məhkəməsində təsadüfi insanlar yoxdur".

Konstitusiya Məhkəməsinin rəyi olmadan konstitusiyaya ediləcək dəyişikliklərin hüquqi qüvvəsinə gəldikdə isə, Feliks Toxyan bunun mümkünsüz olduğunu bildirib: "Bu səbəbdən biz Paşinyana qarşı çıxanlarla birlikdə olmağı düşünürük".

Xatırladaq ki, Ermənistan parlamenti konstitusiyaya dəyişikliklər barədə qanun layihəsini birinci oxunuşda qəbul edib. Dəyişikliklərin lehinə 89 deputat səs verib. Konstitusiya dəyişikliklərinə əsasən, Konstitusiya Məhkəməsində 12 ildən çox işləmiş hakimlər azad edilir. Digər hakimlər isə 12 illik müddət başa çatdıqdan sonra azad ediləcək. Konstitusiya dəyişiklikləri üçün əvvəlcə referendum nəzərdə tutulsa da, koronavirus pandemiyası ilə əlaqədar bunun parlament daxilində həyata keçirilməsi qərarı verilib.

Bu arada Ermənistanda sosial vəziyyət daha da pisləşir, işsizlik, cinayətkarlıq durmadan artır. Paşinyan isə bütün vacib məsələləri buraxaraq, özünə rəqib bildiyi şəxsləri zərərləşdirməklə məşğuldur. Maraqlıdır ki, Paşinyan bu istiqamətdəki fəaliyyətinə səhiyyə naziri Arsen Torosyanı da qatıb.

Belə görünür ki, koronavirusa qarşı mübarizə ölkədə ikinci plana keçib. "Qolos Armenii" saytının yazdığına görə, hakimiyyətdə olduğu iki il ərzində Paşinyan məhv edə biləcəyi hər şeyi məhv edib: "Paradoksal görünsə də, baş nazir ikinci prezident Robert Koçaryanı, general Manvel Qriqoryanı, maliyyə naziri Qaqik Xaçatryanı və oğlunu həbs etdirdi. Bu gün Nikola elə gəlir ki, Tsarukyanı da həbs etdirsə, artıq ölkədəki nüfuzlular ondan qorxmağa başlayacaqlar. Bundan əlavə, ölkədəki nüfuzlu şəxsləri dəmir barmaqlıqlar arxasına qoymaq üçün çox güclü olmaq lazımdır. Əslində, dövlət başçısının gücü həbs olunanların sayı və cəza tədbirlərinin şiddəti ilə deyil, insanlar üçün daha yaxşı həyat qurmaq qabiliyyəti ilə ölçülür. Nikol vaxtilə xalqın ona dayaq verdiyi gücdən xalqın maraqları naminə istifadə edə bilmədi. Təsadüfi deyil ki, bu gün Ermənistanda xəstəlik üzündən həyatını itirən insanların əksəriyyəti hakimiyyətin günahı ucbatından ölürlər".

Qeyd olunur ki, Paşinyana dəstək verən səhiyyə naziri isə ölkəni koronavirusdan necə qorumağın yolunu bilmir. Ölkə xəstəxanalarında çarpayı çatmır. Paşinyan bununla məşğul olmaq əvəzinə siyasi rəqiblərini aradan götürməklə məşğuldur.

Hesab edilir ki, bunların fonunda qarşıdakı dövr ərzində Ermənistanda gərgin bir vəziyyət yaranacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## "Bakı Kristal Zalı" MMC

### "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2020-ci ilin tələbatı üçün təmir-bərpa işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1: "Bakı Kristal Zalı" MMC İdman-Konsert Kompleksi Mətbuat Mərkəzinin korroziyaya uğramış sahəsi 5200 m2 dam örtüyünün dəyişdirilməsi, binanın perimetri boyu parapetin korroziyaya uğramış metal konstruksiyanın təmiri və rənglənməsi, günəşdən qoruyucu yararsız halda olan metal jalüzlərin bərpası və dəyişdirilməsi işlərinin satın alınması

**İştirak haqqı: 600 manat**
**Kapital Bank Mərkəz Filialı**
**Kod: 200026**
**Bankın VÖEN-i: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK: AIIBAZ2XXXX**

**"Bakı Kristal Zalı" MMC**
**Hesablaşma hesabı: AZ47AIIB38090019440442574102**
**VÖEN: 1701377101**

Təkliflər Azərbaycan dilində tərtib olunmalıdır və Portala 29 iyul 2020-ci il saat 10:00-a qədər qəbul olunur. Zərflərin açılma tarixi 30 iyul saat 10:00.

**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Bayıl massivi, Dövlət Bayrağı Meydanı.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Teymur Hüseynova müraciət etmək olar.**
**Telefon: (012) 404 31 52 (daxili 210)**
**e-mail: teymur@crystalhall.az**

***Tender komissiyası***



## Sumqayıt Şəhər İcra Hakimiyyəti

### 2020-ci ildə 222110 - "Tikili və avadanlıqların cari təmir xərcləri" xərc maddəsi üzrə 18 saylı uşaq bağçasının və şəhər icra hakimiyyətinin xidməti avtomobil qarajlarında təmir işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1(bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 150 manatdır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu: 7y**
**İqtisadi təsnifat: 142330**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **29 iyul 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 10 avqust 2020-ci il saat 15:00-a qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri 11 avqust 2020-ci il saat 15:00-da Portalda açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 01 iyun 2020-ci il tarixli sayında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına nasosların təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **09 iyul 2020-ci il saat 16:00-a,** təkliflərin açılışı isə **10 iyul 2020-ci il saat 16:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412 431-47-67 (2246).

***Tender komissiyası***


## "Ən yaxşı tank heyəti" adı uğrunda yarışlar keçirilib

Bu il üçün hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, çöl məşqləri zamanı heyətlərin bacarığı və uyarlığı yoxlanılıb, hərəkətdə olan şərti düşmən hədəflərinə döyüş atışları yerinə yetirilib.

Bundan əlavə, şəxsi heyət döyüş maşınlarının idarə olunması üzrə praktiki təlim tapşırıqlarını icra edib.

# Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək

**Azərbaycanda iyunun 25-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gün ərzində arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24°, gündüz 28-33° isti, Bakıda gecə 21-23°, gündüz 30-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 35-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində gün ərzində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 22-23°, Türkan, Hövsan, Sahil, Şıxda isə 24-25° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti, dağlarda gecə 11-16°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, iyunun 25-26-da Abşeron yarımadasında xəzri küləyinin arabir güclənəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, şimşək çaxanda arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 32-37° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 31-36° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Lokal leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər dağlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 29-34° isti, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 32-37° isti, dağlarda gecə 17-20°, gündüz 25-30° isti olacağı gözlənilir.

## Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi
## Nəqliyyat vasitələri üçün müxtəlif ehtiyat hissələrinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

**Tender predmeti:**
Nəqliyyat vasitələri üçün müxtəlif ehtiyat hissələrinin elektron **satın alınması**
Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**
Tender iştirakçıları öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.
Tenderdə iştirak etmək istəyənlər **350** (üç yüz əlli) manat məbləğində iştirak haqqını **"Asan ödəniş"** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.
Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi**

**Hesab: AZ38CTRE00000000000002518333**
**VÖEN: 1700188251**
**Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**

**Büdcə təsnifatının kodu: 142 330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (Əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15 iyul 2020-ci il saat 13:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **23 iyul 2020-ci il saat 13:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **24 iyul 2020-ci il saat 13:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsilə tanış ola bilərlər.
E-şərtlər toplusunu **24 iyun 2020-ci il saat 17:00-dan** sonra əldə etmək olar.

***Tender komissiyası***

## Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi
## Dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə
## *açıq tender elan edir*

**Tender predmeti:**
Dəftərxana və təsərrüfat mallarının **elektron satın alınması**
Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**
Tender iştirakçıları öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.
Tenderdə iştirak etmək istəyənlər **500** (beş yüz) manat məbləğində iştirak haqqını **"Asan ödəniş"** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.
Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi**

**Hesab: AZ38CTRE00000000000002518333**
**VÖEN: 1700188251**
**Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**

**Büdcə təsnifatının kodu: 142 330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (Əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15 iyul 2020-ci il saat 13:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **23 iyul 2020-ci il saat 13:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **24 iyul 2020-ci il saat 13:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsilə tanış ola bilərlər.
E-şərtlər toplusunu **24 iyun 2020-ci il saat 17:00-dan** sonra əldə etmək olar.

***Tender komissiyası***

## Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi
## Xüsusi yay geyim formalarının satın alınması məqsədilə
## *açıq tender elan edir*

**Tender predmeti:**
Xüsusi yay geyim formalarının **elektron satın alınması**
Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - **2020-ci il ərzində.**
Tender iştirakçıları öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.
Tenderdə iştirak etmək istəyənlər **500** (beş yüz) manat məbləğində iştirak haqqını **"Asan ödəniş"** vasitəsilə göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.
Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi**

**Hesab: AZ38CTRE00000000000002518333**
**VÖEN: 1700188251**
**Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**

**Büdcə təsnifatının kodu: 142 330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (Əsasnaməsi) və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın surətləri (notarial qaydada təsdiq olunmalıdır);*
- *təşkilatın rəsmi blankında dərc olunmuş rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15 iyul 2020-ci il saat 13:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **23 iyul 2020-ci il saat 13:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **24 iyul 2020-ci il saat 13:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsilə tanış ola bilərlər.
E-şərtlər toplusunu **24 iyun 2020-ci il saat 17:00-dan** sonra əldə etmək olar.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC Avtomobil, maşın və mexanizmlər üçün sürtkü yağlarının satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. Avtomobil, maşın və mexanizmlər üçün sürtkü yağlarının satın alınması**

**İştirak haqqı - 300 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.
Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15 iyul 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **23 iyul 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **24 iyul 2020-ci il saat 15:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.
**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərpoçt" MMC-nin "Azərbaycan" qəzetinin 02 iyun 2020-ci il tarixli 103 saylı nömrəsində dərc edilmiş "Bağlama qutularının satın alınması"na dair açıq tender prosedurunda tələb olunan sənədləri təqdim edən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbi ilə ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə **"Qazax rayonu Kəmərli kəndi ərazisində 10 kV-luq hava xəttinin, 160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı yetərincə olmadığı üçün tender sənədlərinin qəbulu 03 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin qəbulu 13 iyul 2020-ci il saat 16:00-a, zərflərin açılışı 14 iyul 2020-ci il saat 16:00-a qədər uzadılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə **"Gədəbəy rayonu Əyrivəng və Qasımlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 63/250 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı yetərincə olmadığı üçün tender sənədlərinin qəbulu 03 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin qəbulu 13 iyul 2020-ci il saat 16:00-a, zərflərin açılışı 14 iyul 2020-ci il saat 16:00-a qədər uzadılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə **"Goranboy rayonu Buzluq kəndi ərazisində 10 kV-luq hava xəttinin, 100/250 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı yetərincə olmadığı üçün tender sənədlərinin qəbulu 03 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin qəbulu 13 iyul 2020-ci il saat 16:00-a, zərflərin açılışı 14 iyul 2020-ci il saat 16:00-a qədər uzadılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 02.06.2020-ci il tarixdə **"Şəmkir rayonu Bayramlı kəndi ərazisində 10 kV-luq hava xəttinin, 160/250 kVA gücündə mövcud KTM-lərin kabel xəttinin çəkilməsi, 400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı yetərincə olmadığı üçün tender sənədlərinin qəbulu 03 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin qəbulu 13 iyul 2020-ci il saat 16:00-a, zərflərin açılışı 14 iyul 2020-ci il saat 16:00-a qədər uzadılır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi ASC-nin vitse-prezidenti Ziyəddin Quliyevə həyat yoldaşı

**MƏLAHƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyevə həyat yoldaşı

**MƏLAHƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7376
Sifariş 1610
Qiyməti 40 qəpik